RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 112 (8428) ŞƏNBƏ, 13 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Mərhəmətin, humanizmin İLHAM ƏLİYEV örnəyi

## Azərbaycan Prezidentinin qlobal pandemiya ilə mübarizə metodları beynəlxalq aləmdə təqdir edilir

**Elmin bu qədər inkişaf etdiyi XXI əsrdə süni intellekt formalaşdıran müasir dünya insanı beş aydır bəşəriyyəti çətin sınaq qarşısında qoyan koronavirus adlı bəlaya qarşı hələ də aciz durumda qalmaqdadır. Virusa qarşı vaksinin tapılmaması dünya iqtisadiyyatını getdikcə çökdürməkdədir. Bir tərəfdən insan tələfatı, digər tərəfdən isə iqtisadi tənəzzül dünyanın bəzi dövlətlərini acınacaqlı duruma salıb. Elə bu səbəbdən də BMT və Ümumdünya Səhiyyə Təşkilatı həmin ölkələrə yardımların edilməsi ilə bağlı çağırışlar edirlər.**

Qlobal pandemiyaya qarşı qabaqlayıcı tədbirlər görən, özünün xilas modelini yaradaraq əhalisini, iqtisadiyyatını qorumaqla təhlükədən az itki ilə çıxmağı qarşısına məqsəd qoyan bəzi dövlətlər bu çağırışa müsbət cavab verirlər. Sevindirici haldır ki, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan da bu ölkələr sırasındadır.

### Azərbaycan 29 ölkəyə humanitar yardım göstərib

Hazırda qlobal pandemiyaya qarşı mübarizə aparan, onun təsirindən az itki ilə çıxmaq üçün daxili imkanlarını səfərbər edən Azərbaycan dövləti hər zaman olduğu kimi məhz bu çətin dövrdə də xoşməramlı missiyasını davam etdirir. İndiyədək Azərbaycan pandemiyadan əziyyət çəkən bir çox dövlətə kömək əlini uzadıb.

İyunun 9-da növbəti modul tipli xəstəxanaların açılışında iştirak edən Prezident İlham Əliyev ölkəmizdə pandemiya ilə mübarizə istiqamətində indiyədək görülən işlərdən söz açaraq Azərbaycanın dünya dövlətlərinə etdiyi yardımlardan danışdı, həmçinin ölkəmizin bəzi dövlətlərlə müqayisəsini apardı.

Prezident öncə vurğuladı ki, pandemiya ilə mübarizədə əsas məsələ özünə qapanmamaqdır. Ancaq pandemiyanın ilkin dövründə bəzi ölkələr bu yola əl ataraq sonradan peşman oldular: “Həmin ölkələr humanitar məsələlərdə də özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir”.

Buna paralel olaraq Azərbaycan fərdi qaydada 14, Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstərib. Bu proses indi də davam edir. 15 ölkə hazırda Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir.

Bir sözlə, Azərbaycan dövləti müraciət edən bütün dövlətlərə əl tutaraq öz köməyini əsirgəməyib.

Bununla yanaşı, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına da fərdi qaydada iki dəfə (ümumilikdə 10 milyon dollar) ianə verib və beləliklə, Azərbaycan beynəlxalq təşkilat vasitəsilə 29 ölkəyə humanitar yardım göstərib: “Mən indi bu məsələ ilə bağlı dünyada gedən prosesləri, mənzərəni izləyirəm və tam məsuliyyətlə deyə bilərəm ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bax, budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri”.

Həqiqətən də, 20-10 il əvvəl kiminsə ağlına belə gəlməzdi ki, bir vaxtlar adi elektrik enerjisini idxal edən bir ölkə Prezidentin dediyi kimi, indi təkbaşına belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə xeyirxahlıq etsin, yardımlar göstərsin.

Bütün bunlar əlbəttə ki, Azərbaycan Prezidentinin insanseverliyinin, yardımseverliyinin bariz nümunəsidir. Cənab İlham Əliyev yardım üçün müraciət edənləri heç vaxt geri çevirmir. Buna görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət yürüdən cənab İlham Əliyevə olan rəğbət və hörmət gündən-günə artır.

### İlham Əliyevə təşəkkür məktubları, Paşinyana lənətlə dolu çağırışlar…

Hazırda bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyət davam edir. Həm ölkəmizdə, həm də bəzi dövlətlərdə baş verən hadisələrə baxdıqda bir daha görünür ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib.

Ardı 5-ci səh.

# MİLLİ QURTULUŞ - 27

## Xalqımızın nicat yolunun başlanğıcı

“Azərbaycanın dövlət müstəqilliyi yenilməzdir, dönməzdir, əbədidir. Azərbaycan əbədi müstəqil bir dövlətdir”

Heydər ƏLİYEV

Hər bir xalqın taleyində mühüm əhəmiyyət kəsb edən elə məqamlar var ki, həmin günlərdə onun gələcək müqəddəratını müəyyən edən mühüm başlanğıcların əsası qoyulmuşdur. Azərbaycan xalqının tarixində belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür.



Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz Ümummilli Lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun Milli Qurtuluş Gününü hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edir.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yenicə müstəqilliyə qədəm qoymuş dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar xalq qarşısında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: “Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı”.

Belə fenomenal liderlər xalqın əsrlər boyu formalaşmış və ümumbəşəri dəyərlərlə çulğalaşmış siyasi dünyagörüşü əsasında özlərinin mükəmməl dövlətçilik konsepsiyasını ortaya qoyur. Tanrı belə şəxsiyyətlərə həm də xilaskarlıq missiyası verir - zamanın ən sərt sınaqlarından fədakarlıqla çıxmış bu insanlar əsrlər boyu xalqlarının dövlətçilik idealını gerçəkləşdirməyə, müstəqillik və azadlıq ideyalarını reallaşdırmağa nail olurlar.

Liderlik lazımi anda cəsarət nümayiş etdirmək bacarığıdır. Ulu Öndər Heydər Əliyevin də şəxsiyyət kimi böyüklüyünü təcəssüm etdirən ən başlıca xüsusiyyətlərdən biri də ümumxalq mənafeyi ilə bağlı məsələlərdə onun heç bir təhlükədən çəkinməməsi, cəsarət və qətiyyət göstərməsi, ədalət meyarına sadiqliyidir. O, XX əsrin görkəmli liderlərindən biri kimi etimad göstərildiyi bütün vəzifələrdə özünü beynəlxalq miqyaslı siyasətçi, dərin zəkalı rəhbər kimi tanıtmışdır.

Qədim Roma mütəfəkkiri Siseron yazırdı ki, insanlar həqiqi azadlığa qovuşmaq, sərbəst yaşamaq üçün qanuna tabe olmalıdırlar. Bəşəriyyətin tarixi təkamül prosesi də təsdiqləyir ki, yalnız ədalət, müdriklik, humanizm kimi ali dəyərləri öz şəxsiyyətində birləşdirərək kamillik zirvəsinə yüksəlmiş liderlər qanuna söykənən cəmiyyət yaratmaq idealı ilə yaşamış və fəaliyyət göstərmişlər.

Ardı 4-cü səh.

## Milli Məclisin iclası



# Bütün sosial proqramlar icra olunmuşdur

**İyunun 12-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirildi.**

İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, bir neçə gündən sonra xalqımız tariximizə qızıl hərflərlə yazılmış 15 İyun Milli Qurtuluş Gününü qeyd edəcək. Bu, bizim üçün sadəcə təqvim bayramı deyil. Onun ictimai, siyasi və tarixi əhəmiyyəti olduqca böyükdür. Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin dönüş nöqtəsidir, xalqımızın, Azərbaycan dövlətçiliyinin sözün həqiqi mənasında xilası tarixidir. Bu tarixi yaradan, yazan isə milli, müstəqil dövlətçiliyimizin banisi Ulu Öndər Heydər Əliyevdir.

Spiker qeyd etdi ki, müstəqilliyin ilk illərində dövlətimizin üzləşdiyi təhdidlərin, xalqımızın yaşadığı faciələrin bu gün bu zalda əyləşən bir çoxları canlı şahidi olublar. Həmin dövrdə müşahidə olunan siyasi xaos və anarxiya, dərin iqtisadi tənəzzül, separatizm meyilləri yenicə əldə olunmuş müstəqilliyimizi itirmək təhlükəsi yaratmışdı.

Belə bir zamanda xalqımızın dəstəyi, etimadı və tələbi ilə ölkəmizdə hakimiyyətə gələn Heydər Əliyevin yüksək səriştəsi, liderlik bacarığı, zəngin dövlətçilik təcrübəsi Azərbaycanı siyasi təlatümlərdən, beynəlxalq təcriddən xilas etdi. Ölkəmizdə hökm sürən özbaşınalıq aradan qaldırıldı və ictimai-siyasi sabitlik təmin olundu. Qısa müddət ərzində Ümummilli Liderin rəhbərliyi ilə köklü islahatlar başlandı, dövlətçiliyin əsasları yaradıldı.

Ardı 2-ci səh.

# Azərbaycan koronavirusla mübarizədə nümunəvi ölkələrdəndir

## Prezident İlham ƏLİYEV: “Biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq”

Sərhəd tanımayaraq bütün planetimizə yayılan yeni növ koronavirus, (COVID-19) hazırda bəşəriyyətin üzləşdiyi ən böyük problem olmaqda davam edir.

Artıq yarım ildir ki, dünya ölkələri müxtəlif üsullarla bu xəstəliklə mübarizə aparmağa çalışır. Qlobal problemə çevrilmiş koronavirus infeksiyasının yayılmasına qarşı bütün dövlətlər tərəfindən intensiv qabaqlayıcı tədbirlər görülməsinə baxmayaraq, pandemiyanın qarşısını almaq və onun törətdiyi fəsadları minimuma endirmək səyləri hələ də nəticə vermir. Ən inkişaf etmiş ölkələr belə, bu virusla mübarizədə acizdirlər, gündə yüzlərlə insanın həyatı sona yetir.

Azərbaycanda koronavirusla bağlı vəziyyətin pisləşməməsi üçün hökumət tərəfindən bütün imkanlar səfərbər edilib. Dövlətin güclü potensialı bu infeksiya ilə mübarizəyə yönəlib, lazımi tədbirlər həyata keçirilir. Pandemiya ilə mübarizə çərçivəsində ölkədə səhiyyə, sosial, iqtisadi və s. sahələrdə müxtəlif istiqamətlərdə işlər görülür. Sevindiricidir ki, dünyanı sarsıdan COVID-19-a qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən nümunəvi ölkələr sırasında respublikamızın da adı çəkilir. Azərbaycan öz xalqının sağlamlığını düşünərək virusun yayılmasının qarşısını almaq üçün dərhal qabaqlayıcı, çevik tədbirlər həyata keçirən azsaylı və ilk dövlətlərdəndir. Koronavirusun ölkədə geniş vüsət almasına imkan verməmək, onun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısını almaq, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün hələ yanvar ayından dövlət tərəfindən qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı, Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı.

Prezident İlham Əliyev tərəfindən vaxtında qəbul edilən düzgün qərarlar nəticəsində ölkəmiz pandemiyadan minimum itkilərlə çıxa bilir. Azərbaycan vətəndaşlarından dövlət başçısına hər gün daxil olan yüzlərlə məktubda ölkəmizdə pandemiya dövründə görülmüş işlərə yüksək qiymət verilir, atılan bütün addımlar dəstəklənir. Vətəndaşlar bilirlər ki, bu məhdudiyyətlərin əsas səbəbi insanları qorumaqdır, görülmüş tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanır.

Ardı 5-ci səh.

**Bu gün Azərbaycanın öz potensial və imkanlarına görə Cənubi Qafqazın lider dövləti olması dünyanın bütün siyasi-iqtisadi mərkəzlərinin birmənalı olaraq qəbul etdiyi tarixi reallıqdır.**



# Azərbaycanın növbəti diplomatik uğuru

## Avropa Parlamentində Ermənistanın işğalçı siyasəti etiraf olunur

Bu reallıq həm də rəsmi Bakının tək regional deyil, həm də qlobal səviyyədə gedən müzakirələrdə söz sahibi kimi çıxış etməsini şərtləndirir.

Enerji təhlükəsizliyi, nəqliyyat layihələrinin həyata keçirilməsi, dünyada sülhə nail olunması kimi məsələlərdə Azərbaycanın nümayiş etdirdiyi aydın və konkret mövqe, etibarlı tərəfdaş olması və nəhayət, pandemiyaya qarşı mübarizədə qlobal fəallığı ölkəmizin beynəlxalq münasibətlərdəki möhkəm yerini və güclü rolunu müəyyən edən faktorlardır. Digər tərəfdən İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycanın həm region, həm Avropa İttifaqı ölkələri ilə əlaqələri daha da genişlənib, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu zəmində ölkəmizin beynəlxalq mövqeləri baxımından yeni zəmin formalaşıb.

Təbii ki, bütün bunlar Ermənistanla aparılan sülh danışıqlarında, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində Azərbaycanın üstün mövqeyinin təmin olunmasına xidmət edən mühüm siyasi uğurlar kimi də çıxış edir.

Ardı 7-ci səh.

## Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə

Ülyahəzrət!

Ölkənizin milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Birləşmiş Krallığın dost xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xalqınıza daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Uca Allahdan Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi,***
***Ali Baş Komandanın müavini,***
***Nazirlər Şurası sədrinin birinci müavini***

## Ş.A.Mustafayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının iqtisadi inkişafında xüsusi xidmətlərinə görə Şahin Abdulla oğlu Mustafayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 900,0 (doqquz yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədəolma müddətinin uzadılması haqqında Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədəolma müddətinin uzadılması haqqında 2020-ci il mayın 7-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Beynəlxalq Qızıl Xaç Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## Baş Nazir Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustini Rusiya Günü münasibətilə təbrik edib

İyunun 12-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinə ölkəsinin dövlət bayramı - Rusiya Günü münasibətilə təbrik məktubu göndərib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Əli Əsədov dövlət başçılarının səyləri sayəsində çoxəsrlik təməli olan Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını vurğulayıb.

Məktubda həmçinin Azərbaycan ilə Rusiya arasındakı qarşılıqlı faydalı əməkdaşlığın hər iki ölkənin xalqlarının mənafeyi naminə birgə səylərlə bundan sonra daha da möhkəmlənəcəyinə və genişlənəcəyinə ümidvarlıq ifadə olunub.

## Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyasının həmsədrləri arasında videokonfrans formatında görüş keçirilib

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyasının Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökumətinin sədr müavini, komissiyanın Rusiya tərəfdən həmsədri Aleksey Overçuk arasında videokonfrans formatında görüş keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Rusiya arasındakı strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti, əməkdaşlığın inkişaf perspektivləri, həmçinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində hər iki ölkədə görülən tədbirlər haqqında fikir mübadiləsi aparılıb.

## *Sergey LEBEDEV:* "Azərbaycanın gördüyü tədbirlər koronavirus böhranından ən az itki ilə çıxmağa imkan verəcək"

**Azərbaycanın gördüyü tədbirlər koronavirus böhranından bütün sahələrdə ən az itki ilə çıxmağa imkan verəcək.**

AZƏRTAC xəbər verir ki, MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev bu fikri "Moskva-Baku" nəşrinə verdiyi müsahibədə "Azərbaycan pandemiya ilə bağlı bütün təhdidlərin öhdəsindən necə gəlir?" sualına cavab verərkən söyləyib.

S.Lebedev: "Məlumdur ki, MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da öz ərazisində karantin tədbirləri tətbiq edilməsini qərara alıb. Ölkədə hələ yazın əvvəlində sərhədlər bağlandı, əhalinin sərbəst yerdəyişməsi məhdudlaşdırıldı, bütün kütləvi tədbirlər ləğv edildi. Vətəndaşların olduqları yeri elektron sistem vasitəsilə xüsusi icazə alınmadan tərk etməsi, yaşı 65-dən yuxarı olan şəxslərin isə ümumiyyətlə küçəyə çıxması qadağan edildi. Bütün preventiv tədbirlərin bir məqsədi vardı: insanların həyatını və sağlamlığını qorumaq, respublika ərazisində xəstəliyin geniş yayılmasına yol verməmək. Mənim fikrimcə, bu məqsədə nail olundu".

Sergey Lebedevin fikrincə, Azərbaycanda COVID-19 koronavirusu infeksiyasına yoluxmuş xəstələrin aşkar edilməsi və müalicə olunması, habelə zəruri miqdarda tibbi maskalar və dezinfeksiyaedici vasitələr istehsalı operativ şəkildə nizamlanıb.

MDB İcraiyyə Komitəsinin sədri deyib: "Pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirini yumşaltmaq və onun nəticələrini minimuma endirmək üçün ölkə rəhbərliyi əhalinin ən həssas təbəqələrinə sosial dəstəyi xeyli gücləndirib. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə respublika hökuməti iqtisadiyyatın müxtəlif sektorlarına, o cümlədən özəl biznesə dövlət dəstəyi göstərilməsi üçün geniş proqramlar hazırlayıb.

Gördüyümüz kimi, bütün bunlar müsbət iqtisadi səmərə verir və Azərbaycanın koronavirus böhranından bütün sahələrdə minimum itki ilə çıxmasına imkan verəcək". S.Lebedev Azərbaycanın pandemiyaya qarşı mübarizə məsələlərində beynəlxalq əməkdaşlığı barədə sualın cavabında deyib: "Şübhəsiz, burada Azərbaycan çox fəal rol oynayır. İlk növbədə, Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq sanballı maliyyə yardımı ayrılmasını qeyd etməliyik. Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin hökumət başçılarının yeni koronavirus infeksiyasının yayılması ilə əlaqədar birgə bəyanatında pandemiyaya qarşı mübarizədə ölkələrimiz tərəfindən ÜST-yə kömək üzrə görülmüş tədbirlərə yüksək qiymət verilib.

Azərbaycanın bir sıra MDB ölkələrinə göstərdiyi humanitar yardım, əlbəttə, ən müsbət qiymətə malikdir. Belə bir addım atılması Birlik üzvü olan dövlətlər və xalqlar arasında etimada əsaslanan səmimi münasibətlərin ən yaxşı təsdiqidir.

Mən əminəm ki, Müstəqil Dövlətlər Birliyi birgə səylər sayəsində COVID-19 virusu pandemiyasının bütün dünyaya qarşı yönəlmiş qlobal təhdidinin öhdəsindən uğurla gələcək".

## Prokurorluq orqanlarında struktur islahatları davam etdirilir

### Baş Prokurorluğun yeni strukturu təsdiqlənib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı tərəqqisinin təmin olunması məqsədilə bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sistemində də uğurla davam etdirilir. Dövlət orqanlarında idarəetmənin təkmilləşdirilməsi, işin səmərəliliyinin artırılması istiqamətində aparılan islahatlar bu sahədə dövlət siyasətinin həyata keçirilməsində çeviklik və dinamikliyin artmasına əlverişli imkanlar yaradıb. Həmin islahatların davamı kimi, dövlət başçısının göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanılıb, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan islahatların reallaşdırılması istiqamətində mühüm işlər görülür.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar formalaşdırılması məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 10 iyun tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiqlənib.

Sərəncamla Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılıb, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılıb. Həmçinin idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilib, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı Şəhər Prokurorluğunun istintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılıb.

Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis edilib. Bundan başqa, mərkəzi aparatın yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılıb.

Dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, eləcə də prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə kadr korpusunun sağlam mənəviyyata və yüksək peşəkarlığa malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Prezidentinin imzaladığı sərəncamla Heydər Məmmədov Baş prokurorun müavini vəzifəsinə təyin olunub. Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Nemət Əvəzova yeni yaradılmış Baş Prokurorluğun İstintaq idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilib. Natiq Abdullayev Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi, Elşən Abbasov Təşkilat və icraya nəzarət idarəsinin rəisi, Natiq Hüseynov Kadrlar idarəsinin rəisi, Kamal Qılıcov Xidməti araşdırmalar idarəsinin rəisi, Murad Dadaşov Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi, Anar Məmmədov Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, Sərdar İmanov isə Xətai rayon prokuroru vəzifələrinə təyin olunublar.

Həmçinin uzun illər Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri işləmiş Eldar Sultanov tutduğu vəzifədən azad edilərək Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi vəzifəsinə təyin olunub. Günay Səlimzadəyə isə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri vəzifəsinin icrası həvalə edilib.

Prokurorluq orqanlarında struktur islahatlarının həyata keçirilməsi və kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

**Milli Məclisin iclası**

# Bütün sosial proqramlar icra olunmuşdur

*Əvvəli 1-ci səh.*






Buna paralel olaraq, cəmiyyətimizin ideoloji əsasları formalaşdırıldı, azərbaycançılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edildi. Demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlara start verildi. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməz xarakter almasına nail oldu.

Parlamentin Sədri daha sonra belə bir fikri vurğuladı ki, 15 iyunun bizim üçün müstəsna əhəmiyyəti həm də onunla əlaqədardır ki, möhtəşəm qurtuluş tarixi məhz bu binada - Milli Məclisdə yazılmağa başlanmışdır. Ulu Öndərin parlamentə rəhbərlik etməsi Azərbaycan parlamentarizm tarixinin parlaq bir səhifəsini təşkil edir. O vaxta qədər siyasi çaxnaşmaların, marginal qrupların mübarizəsinin mərkəzi olan Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə demokratiya məbədinə, Azərbaycanın gələcək inkişaf yolunun müəyyən olunduğu strateji bir mərkəzə çevrildi. Ulu Öndər məhz parlamentin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi.

Spiker çıxışında dedi ki, xalqımız haqlı olaraq ölkəmizin bugünkü uğurlarını, sabitlik və firavanlığı məhz Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirir. Ölkəmizin inkişafı ilə bağlı fundamental istiqamətlər Ulu Öndər tərəfindən müəyyən edilmişdir. Çox sevindirici haldır ki, Qurtuluşdan başlanan tarixi yol bu gün də uğurla davam etdirilir. Ölkəmizin bugünkü yüksək inkişafı və tərəqqisi Heydər Əliyev ideyalarından güc alır, qurtuluş məfkurəsinə istinad edir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli siyasət sayəsində Azərbaycan Respublikası inkişaf edir, dövlət quruculuğu istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilir. Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində də etibarlı tərəfdaş kimi tanınır. Bu gün tam əminliklə deyə bilərik ki, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan ən yüksək zirvələri fəth edir.

Sonra parlamentin iclas zalında Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar hazırladığı video-material nümayiş olundu.

Tədbirdə çıxış edən komitə sədrləri Sadiq Qurbanov, Musa Quliyev, Zahid Oruc, Səməd Seyidov, deputatlardan Elşən Musayev, Ramil Həsən, Tural Gəncəliyev, Azay Quliyev, Ceyhun Məmmədov, İlham Məmmədov, Cavid Osmanov, Fəzail Ağamalı qarşıdan gələn 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar fikirlərini bölüşdülər, bu günün milli tariximizdəki rolunu və əhəmiyyətini xüsusi vurğuladılar, seçiciləri maraqlandıran məsələlərdən söhbət açdılar. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri, deputat Tural Gəncəliyev Avropa Parlamentinin Ermənistanın Dağlıq Qarabağa üçüncü yol çəkməsi əleyhinə verdiyi bəyanatı Azərbaycan diplomatiyasının uğuru və Avropa Parlamentinin obyektiv qərarı kimi dəyərləndirdilər. Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlandı.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəliyə 7 məsələ daxil edilmişdir.

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, layihənin birinci oxunuşda Milli Məclisdə müzakirəsi zamanı sənəd barədə ətraflı məlumat verilmişdir. Müzakirələr zamanı 17 deputat çıxış etmiş, qeyd və təkliflərini vermiş, bir sıra məsələlərə maliyyə naziri Samir Şərifov tərəfindən aydınlıq gətirilmişdir.

Komitə sədri bildirdi ki, 2019-cu il Azərbaycanda ən sürətli, əhatəli islahatlar ili kimi yadda qalmışdır. Aparılan iqtisadi islahatlar sürətli və inklüziv iqtisadi inkişafla nəticələnmişdir.

2019-cu ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial-iqtisadi siyasət istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunmuşdur. Bütün sosial proqramlar və xüsusilə də iki böyük sosial paket icra olunmuş, nəzərdə tutulan hədəflərə nail olunmuşdur.

Dövlət və icmal büdcələrinin gəlirləri proqnozla nəzərdə tutulduğundan artıq, xərcləri isə təsdiq edilmiş büdcə ayırmaları həddini aşmadan icra olunmuşdur. Xərclərin az icrası heç bir sosial layihənin prioritet xərclərinin ixtisar olunmaması təqdirəlayiq haldır. Dövlət büdcəsinin kəsiri proqnoza nisbətən qat-qat az olmuş, onun ümumi daxili məhsulda xüsusi çəkisi isə cəmi 0,3 faiz olmuşdur. 2019-cu ilin dövlət büdcəsinin icrası Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf kursunun ardıcıl surətdə davam etdirilməsində öz müsbət rolunu oynamışdır.

Müzakirələr zamanı çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitə sədrləri Bəxtiyar Əliyev, Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Jalə Əliyeva, Erkin Qədirli, Məlahət İbrahimqızı, Fazil Mustafa, Emin Hacıyev, Malik Həsənov, Razi Nurullayev, İltizam Yusifov, Əziz Ələkbərov, Səttar Möhbalıyev, Sevinc Fətəliyeva, Elman Məmmədov, Rauf Əliyev 2019-cu ilin dövlət büdcəsinin icrasını yüksək qiymətləndirdilər, qeyd və təkliflərini verdilər.

Müzakirələrdən sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edildi.

Sonra Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Məhkəmə-Hüquq Şurası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə təklif olunan dəyişiklikləri ikinci oxunuşda diqqətə çatdırdı. Bildirildi ki, layihə barədə birinci oxunuşda ətraflı məlumat verilib. Bu dəyişiklik ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması sahəsində görülən tədbirlər çərçivəsində məhkəmələrin fəaliyyətinin monitorinq sisteminin təkmilləşdirilməsi məqsədini daşıyır. Qanun layihəsi ətrafında müzakirələr zamanı komitə sədrləri Musa Quliyev, Siyavuş Novruzov və deputat Qüdrət Həsənquliyevin fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi də ikinci oxunuşda təqdim olundu. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə bildirdi ki, bu dəyişikliklər ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə əlaqədardır. Belə ki, ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə məcəlləyə bir sıra dəyişikliklər təklif olunur. Bu dəyişikliklər "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini, müasir informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edilməklə, xüsusi hallarda cinayət prosesinin videokonfrans vasitəsilə davam etdirilməsini təmin edən yeni maddələrin əlavə edilməsini, həmçinin bu sahədə müasir informasiya vasitələrinin tətbiqini nəzərdə tutur.

Müzakirələr zamanı çıxış edən komitə sədrləri Bəxtiyar Əliyev, Hicran Hüseynova, Zahid Oruc, deputatlardan Razi Nurullayev, Tahir Kərimli, Fazil Mustafa, Erkin Qədirli, Kamal Cəfərov, Arzu Nağıyev qanun layihəsi barədə öz fikirlərini açıqladılar, təklif olunan dəyişiklikləri məqsədəmüvafiq hesab etdilər. Sonra layihə səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumatı Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov çatdırdı. Bildirdi ki, layihəyə əsasən Muxtar Respublikanın Babək qəsəbəsinə şəhər statusunun verilməsi, Cəhri və Nehrəm kəndlərinə qəsəbə statusu verilməsi nəzərdə tutulub. Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında günbəgün inkişaf edir. Həm iqtisadi islahatlar, həm sosial problemlərin həll olunması regionların da inkişafında özünü büruzə verir. Son illər Babək rayonunda geniş abadlıq, quruculuq tədbirləri həyata keçirilib, onlarla inzibati bina, məktəb və xəstəxanalar, sənaye müəssisələri, park və xiyabanlar salınıb. Rayonun Cəhri və Nehrəm kəndlərinə göstərilən dövlət qayğısı nəticəsində əhalinin sayı artmaqla bərabər, sosial-iqtisadi inkişaf və məşğulluq səviyyəsi də yaxşılaşmış, yeni istehsal və sosial-mədəni obyektlər qurulmaqla hər iki kənd müasir tipli qəsəbəyə çevrilmişdir. Siyavuş Novruzov Naxçıvanın bu yaşayış məntəqələrinin əhalisinin tarixən göstərdikləri qəhrəmanlıqlar, onların dövlətçiliyimizə sadiqliyi, Ümummilli Lider Heydər Əliyevə verdiyi dəstək barədə fikirlərini və xatirələrini bölüşdü. Qanun layihəsi barədə deputat Fəzail Ağamalının fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq təsdiqləndi.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Yerin təki haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdilər. Bildirildi ki, təklif olunan bu dəyişikliklər ekoloji təhlükəsizliyin qorunması məqsədi daşıyır. Sənəd səsə qoyularaq qəbul edildi.

Mülki Məcəllədə, Şəhərsalma və Tikinti Məcəlləsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədləri Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi. Bildirdi ki, bu dəyişikliklər tikinti sahəsində səlahiyyətləri həyata keçirən qurumların dəqiqləşdirilməsi üçün hazırlanmışdır. Layihə barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məzahir Əfəndiyev də fikirlərini bildirdi.

Sonra sənəd səsə qoyularaq qəbul edildi.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verdi. Bildirdi ki, layihə tibb müəssisələrinin akkreditasiyasının keçirilməsi qaydalarını və buna görə tutulan dövlət rüsumunun dərəcələrini müəyyən edəcəkdir. Məsələ barədə Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov da fikirlərini bildirdi, layihəni yüksək qiymətləndirdi.

Sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

İclasın gündəliyindəki məsələlərin müzakirəsi başa çatdıqdan sonra Milli Məclis Sədrinin müavini Adil Əliyev, komitə sədri Sadiq Qurbanov, deputatlar Fazil Mustafa, Tahir Kərimli, Əli Məsimli, Qüdrət Həsənquliyev, Aqil Abbas cari məsələlər barədə fikirlərini bildirdilər, 15 İyun Milli Qurtuluş Günü münasibətilə ürək sözlərini dedilər.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bir daha 15 İyun Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdırdı, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizə bundan sonra da yeni-yeni uğurlar arzuladı.

Bununla da Milli Məclisin iclası başa çatdı.

***"Azərbaycan"***

# MİLLİ QURTULUŞ

## – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993
2020

**15 İyun Milli Qurtuluş Günü xalqımızın tarixinin parlaq səhifələrindən birini təşkil edir. Bu bayram şərəfli və mənalı ömür yolunu müstəqil Azərbaycan dövlətinin qurulmasına, onun dünya ölkələri arasında layiqli yer tutmasına, xalqımızın xoşbəxt və firavan həyat şəraitində yaşamasına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.**



# Milli Qurtuluşdan başlayan böyük yol

Milli Qurtuluşa nail olunması prosesi respublikamızın sosial-iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni böhranla və vətəndaş müharibəsi təhlükəsi ilə üzləşməsi kimi ağır sınaqlardan keçmişdir.

Azərbaycanın dünyada və keçmiş SSRİ-də gedən proseslərin nəticəsində yenidən dövlət müstəqilliyi əldə etməsinin ilk illərində hakimiyyətdə olan qüvvələr xalqımızın taleyüklü problemlərinin həllinə biganə yanaşmış, Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün vahid komandanlığa tabe olan milli ordu yaratmaq əvəzinə, qanunsuz silahlı dəstələrin fəaliyyətinə rəvac vermiş, cəmiyyəti xaos və qarşıdurmalarla üz-üzə qoymuşdur. Xüsusilə, qanunsuz yolla hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün cəmiyyəti böhran girdabına sürükləməsi, Ermənistanın Azərbaycana hərbi təcavüzünün qarşısının alınmasında acizlik göstərməsi, respublikanın şimal və cənub bölgələrində etnik separatizmin güclənməsi xalqımızın kəskin narazılığına səbəb oldu. Əhalinin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar yaranmış ağır və mürəkkəb vəziyyətdən çıxış yolunu həmin dövrdə Naxçıvan Ali Məclisinin Sədri olan görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdilər. 1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat cütlüyü həm xalqımızın israrlı tələbini, həm də özünün acınacaqlı aqibətini nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı.

Parlamentin 1993-cü il iyunun 15-də keçirilən iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bu hadisə xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev Ali Sovetin Sədri, sonra isə Azərbaycan Respublikasının Prezidenti olarkən müstəqil dövlət quruculuğu yolunda uzaqgörən və qətiyyətli siyasət aparmağa başladı.

### Sosial-iqtisadi inkişaf, müstəqil dövlətin hüquqi-siyasi əsaslarının formalaşdırılması, ordu quruculuğu

Heydər Əliyev dövlət müstəqilliyinə qarşı yönəlmiş daxili və xarici təhdidlərin, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması üçün ilk növbədə ictimai-siyasi sabitliyin bərqərar olması istiqamətində mühüm addımlar atdı. Bu məqsədlə Azərbaycanın suverenliyinə və ərazi quruluşuna qarşı yönəlmiş təxribatçı hərəkətlərin, dövlət çevrilişi cəhdlərinin, etnik-separatizmin (Qondarma "Talış-Muğan Respublikası", "Sadval") qarşısı alındı, vətəndaş həmrəyliyinin yaradılması müstəqil dövlət quruculuğunda tarixi uğurların əldə olunmasında böyük əhəmiyyət daşıdı. Heydər Əliyev həmin dövrü xarakterizə edərək bildirmişdir: "İndi respublikanın böhran vəziyyətində - iqtisadi böhran, ictimai-siyasi böhran, eyni zamanda ağır müharibə vəziyyətində hamımız birgə çalışmalı, birgə fəaliyyət göstərməli, həmrəylik - vətəndaş həmrəyliyi, milli həmrəylik nümayiş etdirməliyik. Mən bu həmrəyliyin yaranması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və ali sənəddə xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğu, dövlətin demokratik, hüquqi və dünyəvi xarakter daşıdığı kimi əsas prinsiplər öz əksini tapdı. Hüquqi dövlət quruculuğu sahəsində islahatların aparılması qanunun aliliyi, insan hüquq və azadlıqlarının təmin olunması, eyni zamanda vətəndaşların müstəqil dövlətçilik ətrafında birləşməsi üçün geniş imkanlar yaratdı. Konstitusiyanın qəbulundan sonra cəmiyyətin bütün sahələrində islahatların həyata keçirilməsinin vacibliyini qeyd edən Heydər Əliyev demişdir: "Bizim strateji kursumuz dünya iqtisadi birliyi ilə sıx inteqrasiya edən, bazar iqtisadiyyatına əsaslanan, müstəqil, demokratik hüquqi dövlət qurmaqdır. Buna uyğun olaraq biz artıq konkret nəticələr vermiş olan genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçiririk". Müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi demokratik siyasi sistemin və bazar iqtisadiyyatının inkişafı sahəsində mühüm işlər görüldü. İctimai-siyasi sabitliyin bərqərar olması siyasi, iqtisadi, milli, dini münasibətlərin demokratik prinsiplər əsasında formalaşması üçün əlverişli şərait yaratdı. Demokratiyanın inkişafında söz və mətbuat azadlığının oynadığı rola mühüm əhəmiyyət verildi, onun təmin olunması üçün ardıcıl siyasət aparıldı. Bunun ən parlaq nümunəsi Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə Azərbaycanda KİV üzərindən dövlət senzurasının götürülməsi oldu.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bazar iqtisadiyyatı münasibətlərinə keçidin səmərəli mexanizmini formalaşdırmaq üçün dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələri nəzərə alınaraq strateji vəzifələr müəyyən olundu. 1993-1997-ci illərdə sosial-iqtisadi böhran aradan qaldırıldı, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyanın əsasları yaradıldı. 1998-2003-cü illərdə isə iqtisadiyyatın müxtəlif sahələrini nəzərdə tutan dövlət proqramlarının həyata keçirilməsi ilə bazar iqtisadiyyatının əsasları möhkəmləndi, onun davamlı inkişafına nail olundu və dünya iqtisadiyyatına inteqrasiyası sürətləndi. Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa başladı. İqtisadiyyatın müxtəlif sahələrini əhatə edən islahatların nəticəsində əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsulun həcmi ildən-ilə artdı. Əlverişli biznes mühitinin yaradılması ölkəmizə xarici investisiya qoyuluşunu sürətləndirdi. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq respublikamızın aqrar sektorunda islahatların aparılması ilə torpaq əsl sahibinə - kəndliyə qaytarıldı.

Heydər Əliyev ölkəmizin təhlükəsizliyini və müdafiəsini təmin etmək qabiliyyətinə malik olan Azərbaycan Ordusunun formalaşdırılması yönündə fəal siyasət apardı. Qoşun hissələri keçmiş hakimiyyətlərdən miras qalmış təxribatçı-siyasi ünsürlərdən təmizləndi və möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan Milli Ordunun yaradılması xalqımızda böyük qurur hissi doğurdu. Ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması, onların ixtisasının artırılması, hərbi iş sahəsində elmi tədqiqatların aparılması üçün Heydər Əliyevin 1999-cu il 20 fevral tarixli fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı.

### Milli-mənəvi dəyərlərin qorunub saxlanılması və azərbaycançılıq ideyası

Ulu Öndər Heydər Əliyevin apardığı siyasətin nəticəsində milli-mənəvi dəyərlərin, elm, təhsil, mədəniyyət və incəsənətin inkişafında dönüş mərhələsi başladı. Milli ideologiya səviyyəsinə qaldırılan azərbaycançılıq məfkurəsi ölkəmizdəki müxtəlif xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında tarixi-siyasi əhəmiyyət daşıdı. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini dərindən öyrənməsi üçün əlverişli şərait yarandı. Heydər Əliyev milli-mənəvi dəyərlərin (adət-ənənələr, din, dil, mədəniyyət və s.) azərbaycançılıq məfkurəsi əsasında inkişafına nail olmuş və bununla bağlı bildirmişdir: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi xaricdə yaşayan soydaşlarımız arasında milli-mənəvi dəyərlərin təbliğində mühüm rol oynadı.

Heydər Əliyevin apardığı siyasət etnik mənsubiyyəti, dini baxışları və adət-ənənələrindən asılı olmayaraq bütün ölkə vətəndaşları tərəfindən dəstəkləndi. Demokratik şərait müxtəlif dini dəyərlərin bir-biri ilə yanaşı mövcud olması, vicdan azadlığı və dini etiqad sərbəstliyinin ictimai həyatda özünə mühüm yer tutmasını təmin etdi. Azərbaycandakı bütün dini konfessiyalar və azsaylı xalqlar multikulturalizmin inkişafı, dostluq və humanizm prinsiplərinin öz təsdiqini tapması, vətəndaş həmrəyliyinin möhkəmlənməsində və ictimai-siyasi sabitliyin təmin olunmasında yaxından iştirak etməyə başladılar. Müxtəlif tarixi dövrlərdə daxili və xarici siyasi dairələrin Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş cinayətkar əməllərinə respublikamızda yaşayan azsaylı xalqların, dini konfessiyaların nümayəndələri kəskin etirazlarını bildirdilər. Dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, müxtəlif dini etiqadları təmsil edən dini qurumlar arasında qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsi, dini radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının qarşısının alınması məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci il 21 iyun tarixli fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Ulu Öndərin hakimiyyəti dövründə xeyli sayda qədim dini ocaqlar və müqəddəs yerlər təmir-bərpa edilmiş, yaxud yenidən qurulmuşdur.

### Milli maraqları ifadə edən xarici siyasət, nəqliyyat-enerji təhlükəsizliyinin təmin olunması

Heydər Əliyev Azərbaycanın xarici siyasətini beynəlxalq hüquqi normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi kimi prinsiplər əsasında qurmuşdur. Xarici siyasət aparılarkən Azərbaycanın geosiyasi vəziyyəti, onun dünya ölkələri ilə ayrı-ayrılıqda və çoxtərəfli formatda münasibətlərinin xüsusiyyətləri nəzərə alınmışdır. Regional və beynəlxalq təşkilatlarla əlaqələr möhkəmlənmiş və xalqımızın mənafeyi naminə onların imkanlarından istifadə olunmuşdur. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və digər nüfuzlu qurumlarla Azərbaycanın əlaqələri möhkəmlənmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq Heydər Əliyevin apardığı xarici siyasətin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ümummilli Lider BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etməsinə nail olmuş, münaqişə ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər təşkilatların tribunalarından səsləndirmiş, beynəlxalq birliyi problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırmışdır.

ATƏT-in 1996-cı il 2-4 dekabr tarixlərində Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilmiş Sammitində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının baza formulu müəyyən edildi. Ermənistan istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa dövləti münaqişənin həlli üçün xalqımızın milli mənafeyinə uyğun olan prinsipləri (Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusunun verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi) dəstəklədi. Qeyd edək ki, BMT və ATƏT-lə yanaşı, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi qurumlar da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin sərhədlərinin toxunulmazlığı çərçivəsində həllinə tərəfdar olduqlarını bildirmişlər. Qeyd edək ki, İƏT Ermənistanın Azərbaycana hərbi təcavüz faktını tanıyan ilk beynəlxalq qurumdur. 1993-cü il aprel ayının 25-29-da İƏT-in Xarici İşlər nazirlərinin Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş 21-ci konfransında qəbul edilmiş Qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən təcili çıxması tələb olunmuşdur.

Heydər Əliyev Azərbaycanın zəngin təbii sərvətlərindən dövlət müstəqilliyinin möhkəmlənməsi üçün istifadə olunması və əhalinin sosial rifah halının yüksəlməsi məqsədilə yeni neft strategiyasının əsasını qoymuşdur. 1994-cü il sentyabrın 20-də Azərbaycanla dünyanın nüfuzlu neft şirkətləri arasında "Əsrin müqaviləsi"nin imzalanması xalqımızın təbii sərvətləri üzərində həqiqi sahiblik hüququnun təmin edilməsində böyük tarixi hadisə oldu. Müqavilə çərçivəsində regional və beynəlxalq əhəmiyyət daşıyan enerji layihələrinin həyata keçirilməsinə başlanması Azərbaycanın dünya birliyində nüfuzunu artırdı. 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərləri istifadəyə verildi, 1999-cu ildə Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Saziş imzalandı. "Əsrin müqaviləsi" ölkəmizlə Qərb dövlətləri və beynəlxalq maliyyə qurumları arasındakı münasibətləri möhkəmləndirdi.

Azərbaycan beynəlxalq əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri ilə bağlı layihələrə fəal şəkildə qoşulmuşdur. Məsələn, Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən və tarixi İpək yolunun bərpasını nəzərdə tutan "TRASEKA" layihəsinin reallaşmasında ölkəmiz yaxından iştirak etmişdir. Heydər Əliyevin təşəbbüsü, Avropa Birliyi Komissiyası və "TRASEKA" proqramının iştirakçısı olan ölkələrin birgə qərarı ilə 1998-ci il sentyabrın 8-9-da Bakıda tarixi İpək yolunun bərpasına həsr edilmiş beynəlxalq konfrans keçirilmişdir. 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələrinin iştirak etdiyi tədbirdə "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas Saziş" imzalanmışdır.

### Siyasi kursda varisliyin davam etdirilməsi

Milli Qurtuluş Günündən başlayan yolu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir və onun apardığı siyasətin nəticəsində ölkəmiz keçid dövrünü başa vurub, hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının inkişafı sahəsində mühüm addımlar atılır. Prezident İlham Əliyevin siyasəti xalqımızın maraqlarını özündə əks etdirərək Azərbaycanın siyasi-iqtisadi, mədəni potensialına əsaslanır və müasir dövrün çağırışlarına cavab verir. Dinamik və innovasiya yönümlü milli iqtisadiyyatın inkişafı, sosial, humanitar və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi Azərbaycanın dünya birliyində nüfuzunu artırır. Xalqımızın milli-mənəvi və multikultural dəyərlərinin, müstəqil dövlətçilik tarixinin və görkəmli şəxsiyyətlərin yaradıcılığının təbliği, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, idman və digər sahələrin inkişafı üçün Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycanda 2007-ci il "Gənclər ili", 2009-cu il "Uşaq ili", 2010-cu il "Ekologiya ili, 2011-ci il "Turizm ili", 2012-ci il "İdman ili", 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili", 2014-cü il "Sənaye ili", 2015-ci il "Kənd təsərrüfatı ili", 2016-cı il "Multikulturalizm ili", 2017-ci il "İslam Həmrəyliyi ili", 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili", 2019-cu il "Nəsimi ili", 2020-ci il isə "Könüllülər ili" elan edilmişdir.

### Əhalinin rifahına xidmət edən sosial-iqtisadi və elmi inkişaf

Neft strategiyasının həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər və qeyri-neft sektorunun inkişafı, işsizlik və yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində görülən işlər xalqımızın sosial rifahının yüksəlməsinə mühüm təsir göstərir. Regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan çoxsaylı dövlət proqramlarının həyata keçirilməsi nəticəsində infrastruktur təminatı yaxşılaşır, sahibkarlığın inkişafına təkan verilir, əhalinin məşğulluq səviyyəsi yüksəlir. Azərbaycanda sosial-iqtisadi islahatların uğurla aparılması dünyanın bir çox nüfuzlu iqtisadi-maliyyə mərkəzlərinin hesabatlarında da öz əksini tapır. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya İqtisadi Forumu, "Moodys", "Fitch Raitings", "Standard and Poors" kimi qurumlar Azərbaycanın dünyada ən yüksək iqtisadi artıma malik olduğunu qeyd etmişlər. Məsələn, Davos Dünya İqtisadi Forumunun 2017-ci ilə dair hesabatına görə, ölkəmizin iqtisadiyyatı rəqabət qabiliyyəti parametri üzrə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişaf göstəricisi üzrə 26-cı yeri tutmuşdur. Forumun 2017-ci ilə dair "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 dövlət arasında 3-cü yerə yüksəlmişdir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısında yer tutaraq, 2018-ci ildə dünyanın ən çox islahat aparan ölkəsi elan edilmişdir. Hesabatda ölkəmiz 2017-ci illə müqayisədə 32 pillə irəliləmiş, 190 ölkə arasında 25-ci yeri tutmuş, MDB ölkələri arasında lider mövqeyə malik olmuşdur. Azərbaycan iqtisadiyyatının neftdən və xarici kapitaldan asılılığı kəskin şəkildə azalmış, ümumi daxili məhsulda qeyri-neft sektorunun həcmi artmış, xeyli sayda yerli sənaye, emal və ərzaq istehsalı müəssisələri fəaliyyətə başlamışdır.

Sosial-iqtisadi inkişafa uyğun olaraq, elmi fəaliyyət sahəsində də ardıcıl dövlət siyasəti həyata keçirilir. Ölkəmizin elmi prioritetləri dünya elminin inkişaf istiqamətləri ilə uyğunlaşdırılır. Prezident İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirməliyik!" çağırışı ilə təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidin təmin olunması ölkəmizin strateji hədəflərindən biridir. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə 2-ci - Yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ilin sentyabrında isə "Azerspace-2" orbitə çıxarılmışdır. Prezident İlham Əliyev ilk peykin orbitə buraxılmasını müstəqillik dövründə Azərbaycanın ən böyük uğurlarından biri kimi qiymətləndirmişdir.

### Vətəndaş cəmiyyətinin və multikultural dəyərlərin inkişafı

Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının (siyasi partiyalar, QHT-lər, KİV) ictimai həyatda rolu artır, onların irəli sürdükləri əsaslandırılmış təklif və tövsiyələrə dövlət orqanları diqqətlə yanaşırlar. Hazırda Azərbaycanda 59 siyasi partiya, 4 minə yaxın qeyri-hökumət təşkilatı dövlət qeydiyyatından keçmişdir. Ölkə üzrə KİV-in ümumi sayı 5 mindən çoxdur. Siyasi partiyalar, QHT-lər və KİV prezident, parlament və bələdiyyə seçkilərində, ümummilli əhəmiyyət daşıyan məsələlərin müzakirəsində yaxından iştirak edir, ictimai rəyin formalaşmasına mühüm təsir göstərirlər.

Azərbaycanda yaşayan azsaylı xalqların, dini konfessiyaların hüquqlarının təmin olunması, onların dini-mədəni dəyərlərinin qorunub saxlanılması dövlət siyasətinin əsas məqsədlərindən biridir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateji xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar". Ölkəmizdə 941 dini qurum qeydiyyatdan keçmişdir ki, onların 906-sı islam, 35-i isə qeyri-islam təmayüllüdür. Respublika ərazisində 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq, 748 pir və ziyarətgah fəaliyyət göstərir. Azərbaycandakı multikultural mühit müxtəlif dinlərin və mədəniyyətlərin yanaşı yaşaması, ictimai-siyasi sabitliyin möhkəmlənməsi, dövlətin bütün sahələrini əhatə edən davamlı inkişafın təmin olunması üçün mühüm əhəmiyyət daşıyır. Müxtəlif millətlər və xalqlar arasındakı qarşılıqlı inam, hörmət hissi vətəndaş həmrəyliyini möhkəmləndirir. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir ki, bu da dövlət siyasətində tolerantlığa böyük diqqət yetirildiyinin bariz sübutudur. Dini konfessiyaların fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması, mənəvi dəyərlərin qorunması və inkişafı, bu sahəyə dövlət dəstəyinin təmin olunması məqsədilə Prezident İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsində onun adını daşıyan fondun xidmətləri xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə sosial-iqtisadi və mədəni-humanitar sahələrin inkişafında yaxından iştirak edir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elm, təhsil, səhiyyə, mədəniyyət, sosial məsələlər, idman, ətraf mühitin qorunması və informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində həyata keçirilən layihələri xalqımız böyük rəğbət hissi ilə qarşılayır. Fond milli birliyin möhkəmlənməsində, vətəndaş cəmiyyətinin inkişafında, mənəvi-əxlaqi dəyərlərin qorunmasında mühüm işlər görür. Azərbaycanın qeyri-maddi mədəniyyət nümunələrinin UNESKO-nun siyahısına daxil olunmasında Heydər Əliyev Fondunun göstərdiyi fəaliyyət tarixi əhəmiyyət daşıyır. Milli-mənəvi dəyərlərin dünyada təbliği sahəsində fondun reallaşdırdığı layihələr xalqımızın qədim mədəniyyət nümunələrini ermənilərin öz adlarına çıxması kimi mənfur niyyətlərinin qarşısını alır. Mədəniyyətlərarası dialoqun və tolerant ənənələrin inkişaf etdirilməsi Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biridir. Ötən illər ərzində fondun xətti ilə ölkəmizdəki məscidlərdə, o cümlədən müxtəlif dinlərə sitayiş edən insanların getdikləri ziyarətgahlarda təmir-bərpa işləri aparılmış, azsaylı xalqların nümayəndələri üçün təhsil, mədəniyyət mərkəzləri yaradılmışdır. Fondun layihələri yalnız Azərbaycanla məhdudlaşmamış, xarici dövlətləri də əhatə etmişdir. Belə ki, fond tərəfindən Fransa, Vatikan, İtaliya, Bolqarıstan və s. dövlətlərdə qədim dini, mədəni abidələrdə təmir-bərpa işləri aparılmışdır.

### Milli maraqlara və praqmatizmə əsaslanan xarici siyasət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət ölkəmizi dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının sayəsində mümkün olmuşdur. "Eurovision - 2012", I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Bakı Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşü kimi mötəbər tədbirlərin Bakıda keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artırır.

Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş nəhəng enerji-nəqliyyat layihələri uğurla həyata keçirilir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmişdir. 2014-cü ildə "Cənub qaz dəhlizi"nin, 2016-cı ildə isə Trans-Adriatik Boru Xəttinin (TAP) təməli qoyulmuşdur. 2018-ci il mayın 29-da Bakıda "Cənub qaz dəhlizi"nin, 2019-cu il noyabrın 30-da isə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimləri keçirilmişdir. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xətti istismara verilmişdir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün həm Ermənistan prezidentləri və baş naziri ilə danışıqlarda, həm də BMT Baş Məclisinin sessiyalarında, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların tədbirlərində çıxışı zamanı münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin Ermənistanın beynəlxalq hüquqi prinsiplərə zidd olaraq yerinə yetirmədiyini bildirmişdir. BMT Baş Assambleyasının 2006-cı və 2008-ci illərdə keçirilmiş sessiyalarında qəbul olunmuş sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması faktı pislənilmiş, BMT Təhlükəsizik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların müxtəlif tədbirlər çərçivəsində qəbul etdiyi sənədlərdə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllinin mümkünlüyü bildirilmişdir.

Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı xarici siyasətlə paralel olaraq Milli Ordumuzun maddi-texniki bazasını gücləndirir. Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biridir. 2003-cü ildən indiyə qədər ölkəmizin hərbi xərcləri 15 dəfə artmışdır. Son illər 20 hərbi sənaye kompleksi müəssisəsi tikilib istifadəyə verilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir. 2018-ci il iyunun 26-da Bakı şəhərinin "Azadlıq meydanı"nda Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə keçirilmiş təntənəli hərbi paradda 240-dan çox hərbi texnika, gəmi, 70-dən artıq uçuş vasitəsi, o cümlədən ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş etdirildi. Nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə, Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yerdədir. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqelərdən birini tutur.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını alıb, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. Bütün bunlar Azərbaycan Ordusunun gücünü dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana hərbi təcavüzü və onun nəticələri ilə bağlı həqiqətləri mütəmadi şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Buna misal olaraq, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında, həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş iclasında, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın qətiyyətli mövqeyini ifadə edən çıxışlarını göstərmək olar. Azərbaycan Prezidenti münaqişənin yaranması səbəbləri və onun aradan qaldırılması ilə bağlı aparılan danışıqların mahiyyəti, Ermənistanın qeyri-konstruktiv mövqe tutması və işğalçılıq siyasətini davam etdirməsi barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

*Yuxarıda göstərilənlərin ümumiləşdirilməsi sübut edir ki, Azərbaycanın inkişafı və dünya birliyində layiqli yer tutması Milli Qurtuluş Günündən başlayır. Ulu Öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə və ümummilli maraqlara əsaslanaraq, ölkəmizin tərəqqisi və xalqımızın rifahı naminə misilsiz tarixi fəaliyyət göstərmişdir. Bu gün Azərbaycan qüdrətli və hərtərəfli inkişaf edən dövlət kimi Milli Qurtuluşdan başlayan yolu uğurla davam etdirir.*

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyası İcra katibinin müavini***

# MİLLİ QURTULUŞ

## – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2020

# Xalqımızın nicat yolunun başlanğıcı



*Əvvəli 1-ci səh.*

Gücün siyasətinə qarşı siyasətin gücünü ortaya qoyaraq "Haqlı adam həmişə güclüdür" düsturunu işə salan belə fövqəladə şəxsiyyətlər xalqlarının taleyində əvəzsiz rol oynamış, beləliklə, həm də tarixdə əbədiyaşarlıqlarını təsdiq etmişlər.

XX əsrdə xalqımızın dünya siyasətinə bəxş etdiyi qeyri-adi və fenomen şəxsiyyət - Ümummilli Lider Heydər Əliyev respublikamız müstəqilliyinin itirilməsi, torpaqlarının parçalanması, dövlətçiliyinin məhv edilməsi məqamlarını yaşayan, hərc-mərcliyin baş alıb getdiyi, cinayətkar dəstələrin tüğyan etdiyi bir şəraitdə ölkəyə rəhbərlik etməyə başlayaraq onu çox qısa bir müddətdə sivil dövlətlər sırasına çıxarmışdır.

Heydər Əliyevi şəraitlə bağlı tarixin yetişdirdiyi görkəmli şəxsiyyətlərin fövqündə saxlayan əsas cəhət onun öz ölkəsinin tarixinin yaradıcısı olmasıdır.

Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq, eləcə də "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinin rəhbər tutularaq 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul edilməsi ilə xalqımızı müstəqilliyə aparan yolun qarşısındakı sədd aradan qalxsa da, ilk illər müstəqilliyimizin olduqca kövrək olduğunu və onu qorumağın asan olmayacağını bir daha təsdiq etmişdir.

Dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbulu ilə müstəqil inkişaf dövrünə yenidən qədəm qoymuş, özünün ən böyük milli sərvəti olan bu dəyərin itirilməsi təhlükəsinə dəfələrlə məruz qalaraq ictimai fəlakətlə üz-üzə qalmış Azərbaycan xalqı öz qurtuluşunu **"Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm"** sözləri ilə mühüm xilaskarlıq öhdəliyini öz üzərinə götürmüş Ümummilli Lider Heydər Əliyevin dühasında, zəngin idarəçilik təcrübəsində, dərin zəkasında, möhkəm siyasi iradəsində və milli mənafelərə sadiqliyində tapmışdır. Təsadüfi deyildir ki, Milli Məclis xalqın istəyini gerçəkləşdirərək 1997-ci ilin iyun ayında Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildiyi 15 iyun tarixinin Milli Qurtuluş Günü kimi qeyd edilməsinə dair qərar qəbul etmişdir. Milli Qurtuluş Günü dövlətçilik tariximizin qızıl hərflərlə həkk edilmiş şanlı səhifəsi, böyük ictimai-siyasi əhəmiyyətə malik mühüm hadisə olaraq xalqımızın müstəqil Azərbaycan və azərbaycançılıq ideyaları ilə Ümummilli Liderin şəxsiyyəti ətrafında sıx birləşməsinin yeganə nicat yolu olduğunu sübut etmişdir.

1993-cü ilin iyun ayının 15-də Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıtması nəticəsində müstəqilliyimiz tarixində əslində böyük bir faciənin qarşısı alınmış, məhz onun səyləri nəticəsində respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirilmiş, vətəndaş müharibəsi təhlükəsinə, separatçı meyillərə son qoyularaq təcavüzkar Ermənistan Respublikası ilə atəşkəs elan olunmuşdur. Heydər Əliyev yeni neft strategiyasının nəticəsi kimi təzahür edən "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmiş, 1994-cü ilin sentyabr ayının 20-də dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmış, 1997-ci ildə Azərbaycan nefti Bakı-Novorossiysk neft kəməri ilə, 1999-cu ildə isə Bakı-Supsa neft kəməri ilə dünya bazarına çıxarılmışdır.

Vaxtında atılan bu addımlar böhran həddinə çatmış ölkə iqtisadiyyatını yenidən hərəkətə gətirmiş, iqtisadiyyatın canlanması Azərbaycan Respublikasının beynəlxalq aləmdə siyasi nüfuzunun artmasına və daha qətiyyətli addımların atılmasına səbəb olmuşdur.

Bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması, müvafiq təkmil qanunvericilik bazasının yaradılması və hüquqi vasitələrin işə salınması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını reallaşdırmış, qeyri-neft sektoru sürətlə inkişaf etməyə başlamış, özəlləşdirmə proqramı həyata keçirilmişdir. Ümumdünya iqtisadi məkanına qətiyyətlə inteqrasiya edən ölkə xammal ixracatçısından istehsal sənayesini qüdrətləndirən və əmtəə ixrac edən əlverişli tərəfdaşa çevrilmiş, ölkədə aqrar islahatları aparılmış, torpaq kəndlilərin mülkiyyətinə verilmişdir.

Məhz Ulu Öndərin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində respublikamızda cinayətkarlıq və hüquq pozuntularına qarşı barışmaz mübarizə elan edilmiş, bütün hüquq mühafizə orqanlarının fəaliyyəti cinayətkar təzahürlərə, ilk növbədə, mütəşəkkil cinayətkarlığa, korrupsiya və rüşvətxorluğa, terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə səfərbər olunmuş və "qanunun aliliyi" prinsipinin real təmin olunması üçün müvafiq tədbirlər görülmüşdür.

"Ədaləti ədalətsizliklə bərpa etmək olmaz" - deyərək ictimai həyatın ən müxtəlif sahələrində haqq-ədalət prinsipinin qorunmasına çalışan, bunu idarəçiliyin başlıca formuluna çevirən Heydər Əliyev dühası yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir.

## Heydər Əliyev müstəqilliyimizin qarantı, Azərbaycanda hüquqi dövlətin banisidir

Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi və yaxından iştirakı ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul olunmuş ilk Milli Konstitusiyamızın preambula hissəsində Azərbaycan xalqı Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağı özünün əsas niyyəti olduğunu təntənəli surətdə bəyan etmişdir. Əsas Qanunun 1-ci maddəsində müəyyən olunduğu kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Konstitusiyanın xalqın suverenliyinə xüsusi olaraq həsr edilmiş 2-ci maddəsinə görə sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi olan referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik dövlət quruculuğu istiqamətində inkişafının hüquqi təsisatlarını, dövlətin və idarəetmənin hüquqi əsaslarını, hüquq sisteminin bünövrəsini formalaşdırmış Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilməsi bəyan edilmişdir. Konstitusiyada Azərbaycan Respublikasının Prokurorluğuna xüsusi maddə həsr edilərək dövlət idarətmə sistemində bu dövlət təsisatının yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Konstitusiyanın qəbulundan sonra Ümummilli Lider Heydər Əliyev hüquq mühafizə orqanlarının fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün bir sıra mükəmməl qanunvericilik aktlarının qəbulunu təmin etmiş, bu məqsədlə 21 fevral 1996-cı il tarixdə Hüquqi İslahatlar Komissiyası yaradılmış, Avropa Şurasının tövsiyələri nəzərə alınmaqla hazırlanmış "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının məntiqi nəticəsi olmuşdur.

1993-cü ildə ölüm cəzası üzərində moratorium qoyulması və 1998-ci ilin fevralında bu cəzanın tam ləğvi; 32 əfv, 8 amnistiya aktının imzalanması, mütərəqqi qanunların qəbuluna start verilməsi, üçpilləli müstəqil məhkəmə sisteminin yaradılması və hakimlərin test üsulu ilə seçilməsi, 1998-ci ilin 22 fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanın imzalanması, 1998-ci il iyulun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması, Azərbaycanın beynəlxalq konvensiya və sazişlərə qoşulması, 2001-ci ilin 17 yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, İnsan Hüquqları üzrə Müvəkkil İnstitutunun formalaşdırılması, 24 avqust 2002-ci il tarixində Azərbaycan Respublikasının Konstitusiyasına yeni dövrün tələblərindən irəli gələn mütərəqqi ruhlu əlavə və dəyişikliklərin edilməsi kimi mühüm islahatlar məhz Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Qarışıq və təlatümlü dünyada və eləcə də həddindən artıq mürəkkəb Qafqaz regionunda tutduğu yerin, oynadığı rolun, həmçinin ölkəmizin dünya üçün strateji önəminin düzgün müəyyənləşdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi bir şəraitdə olduqca çevik və müxtəlif gedişli xarici siyasət kursu yeridən Heydər Əliyevin xarici siyasət strategiyası Azərbaycana beynəlxalq aləmdə nüfuz və hörmət qazandırmış, ölkəmizin beynəlxalq münasibətlər müstəvisində tutduğu mövqeyə böyük inam yaratmışdır ki, bunun nəticəsi olaraq Azərbaycan dünyanın əksər aparıcı ölkələrinin maraq mərkəzinə çevrilərək beynəlxalq və regional əməkdaşlıq sahəsində mühüm rol oynamağa başlamışdır.

2001-ci ilin yanvar ayının 25-də Azərbaycan Respublikası tamhüquqlu üzv kimi Avropa Şurasına qəbul olunmuş, "İnsan Hüquqlarının və əsas Azadlıqlarının müdafiəsi" haqqında Avropa Konvensiyasına qoşulmuşdur. Hazırda Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı kimi mötəbər qurumların tam hüquqlu üzvüdür. Azərbaycan Avratlantik məkana inteqrasiya yolu ilə gedərək Avropa İttifaqı və Şimali Atlantika Alyansı ilə münasibətləri daha da genişləndirmiş, 2003-cü ildə "Avropa Qonşuluq Siyasəti" ilə Avropa Birliyi Azərbaycanla qurduğu əlaqələrində yeni səhifə açmışdır.

## Ölkədə həyata keçirilən konseptual islahatlar dayanıqlı inkişafı şərtləndirən mühüm faktordur

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bütün sahələrdə dinamik inkişafa, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına, əhalinin maddi rifah halının daha da yaxşılaşdırılmasına nail olunmaqla, beynəlxalq standartlara uyğun hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirilməsi sayəsində qazanılan nailiyyətlərin miqyasına görə bu gün ölkəmiz beynəlxalq aləmdə qabaqcıl mövqelərə yiyələnmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış və demək olar ki, ölkə həyatının bütün sahələrini əhatə edən "regionların inkişafı" dövlət proqramlarının uğurla icrası Azərbaycanı dünyada islahatçı ölkə kimi tanıtmış, məhz həmin proqramların icrası nəticəsində aparılan sosial-iqtisadi islahatlar ölkəmizin dinamik inkişafını daha da sürətləndirmiş, iqtisadiyyatın əksər sahələrində yüksək artım əldə olunmuşdur.

Sosialyönümlü siyasət yeridən dövlət başçısı ötən illər ərzində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlarla daim xalqın mənafeyindən çıxış etdiyini, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini sərgiləmiş, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların proporsional inkişafı, yeni istehsal müəssisələrinin açılması, ən başlıcası, işsizlik probleminin aradan qaldırılması istiqamətində effektiv nəticələrə hesablanmış cəsarətli addımlar atılmışdır.

İqtisadiyyatın sürətli inkişafı ordu quruculuğuna da təkan verərək ölkənin müdafiə potensialının möhkəmlənməsinə bilavasitə təsir göstərmiş, iqtisadi inkişafa müvafiq olaraq hərbi xərclərin artırılması ordumuzun maddi-texniki təminatının, o cümlədən silah-sursatla təchizatının daha da yaxşılaşmasına şərait yaratmışdır.

2016-cı ilin aprel ayının ilk günlərində Ermənistan ordusunun təxribatının qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi uğurlu döyüş əməliyyatları bir daha bütün dünyaya ordumuzla düşmən ordusu arasındakı güc fərqini, Azərbaycan Ordusunun peşəkarlığını və yüksək döyüş hazırlığını göstərməklə yanaşı, istənilən an Ali Baş Komandan İlham Əliyevin əmri ilə torpaqlarımızı düşmən tapdağından azad etməyə qadir olduğunu nümayiş etdirmişdir.

Hazırda Azərbaycan dövləti milli mənafeyini lazımi səviyyədə müdafiə edərək ayrı-ayrı ölkələrlə, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quraraq müstəqil siyasət yürüdür. Dövlət başçısı bəyan edib ki, qarşıda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır.

Prezident İlham Əliyevin praqmatik siyasi lider kimi reallığı operativ və obyektiv şəkildə dəyərləndirməsi, milli maraqlar naminə cəsarətli və prinsipial addımlar atması, istənilən ekstremal şəraitdə ən optimal, düzgün qərar qəbul etməsi, habelə ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşması ölkəmizin gələcək uğurlarını daha yaxın edir.

Dövlət başçısının dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyasının üstünlüyü, obyektiv xarakteri və alternativsizliyi Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə öz təsdiqini tapmış bu siyasi kursun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır.

Bu gün müstəqil Azərbaycan öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu olan dövlətdir. Ötən illərdə respublikanın milli inkişaf strategiyası, siyasi-iqtisadi, mədəni-mənəvi təkamül konsepsiyası, vahid ideologiyası formalaşmış, dövlətin milli maraqlara əsaslanan diplomatiyası, demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti müstəqilliyimizin praktik olaraq gerçəkləşdirilməsini təmin etmişdir.

Azərbaycanda mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlib.

Respublikamızın diplomatiyada ardıcıl, qətiyyətli, prinsipial, öhdəliklərinə sadiq tərəfdaş imicini qazanması onun müxtəlif güc mərkəzləri ilə münasibətlərinin xarakterində hansısa şübhə və tərəddüdlərə yer qoymur. İstənilən siyasi gərginliyin beynəlxalq hüquqi prinsiplər əsasında, diplomatik danışıqlar və qarşılıqlı anlaşma şəraitində aradan qaldırılması zərurətini diqqətə çəkən Azərbaycan hökuməti ölkənin geosiyasi rəqabət meydanına çevrilməsinə, hansısa dövlətə hərbi güc tətbiqində platsdarm ərazi kimi istifadə edilməsinə heç zaman yol verməyəcəyini qətiyyətlə bəyan etmiş, bunu əməli fəaliyyəti ilə sübuta yetirmişdir. İqtidarın xalqın dəstəyinə arxalanması, hər bir məsələdə milli maraqları önə çəkməsi sayəsində Azərbaycanın xarici siyasəti dövlətin maraq və təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

Müasir Azərbaycan dövlətinin inkişaf tarixi qeyd etməyə əsas verir ki, müstəqilliyimiz və suverenliyimiz etibarlı əllərdə olmaqla respublikanın uğurlu və davamlı tərəqqisinin əsasını təşkil etmişdir. Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev tərəfindən qorunub saxlanmaqla onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti nəticəsində daha da möhkəmləndirilmiş müstəqilliyimiz və suverenliyimiz sayəsində sabitlik və təhlükəsizlik şəraitində yaşayır.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi, mərkəzində Azərbaycan xalqı, onun qayğı və maraqları olan müdrik dövlət siyasəti ölkə vətəndaşlarının öz dövlətinə və Prezidentinə inamını və etibarını gündən-günə daha da artırır, xalqla iqtidar birliyini daha da möhkəmləndirir.

Dövlət başçısının qeyd etdiyi kimi, **Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqı və dövlətin həyata keçirdiyi siyasətdir, xalq-iqtidar birliyi ölkənin uğurlarının əsas şərtidir.**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən sosial məsələlərə xüsusi önəm verilməsi bu sahədə təqdirəlayiq nəticələrin, böyük uğurların əldə olunmasına, insanlara göstərilən qayğının yüksək həddə çatdırılmasına şərait yaratmış, sosial yönümlülük həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətinə çevrilmişdir. Bunu dünyada son dövrün ən böyük qlobal bəlasına və probleminə çevrilmiş, ən inkişaf etmiş ölkələri belə ciddi sınağa çəkmiş koronavirusla bağlı mübarizə sahəsində dövlət başçısının rəhbərliyi və nəzarəti altında görülən çox önəmli qabaqlayıcı tədbirlər vətəndaşların maksimal dərəcədə qorunmasına imkan yaratmaqla dövlətin daim öz vətəndaşının yanında olduğunu, onun qayğısına qaldığını növbəti dəfə təsdiq etmişdir.

Əhalinin geniş təbəqələrinin yardımla və sosial-iqtisadi dəstəklə təmin olunması, dövlətdən yardım alan insanların sayının 3 dəfə artırılaraq 600 minə çatdırılması, pandemiyadan zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqqının böyük hissəsinin dövlət tərəfindən ödənilməsi, eyni sayda sahibkara dövlət dəstəyinin verilməsi, koronavirusla bağlı mübarizədə 3.5 milyard ümumi dəstək paketinin nəzərdə tutulması dövlətin humanist mahiyyətini, mərkəzində Azərbaycan vətəndaşı dayanan dövlət siyasətinin həyata keçirilməsinin, insan həyatının və sağlamlığının hər şeydən üstün tutulmasının göstəricisidir.

Aparılan mütərəqqi islahatlar, qlobal pandemiya ilə mübarizə fonunda ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələri üzrə həyata keçirilən hərtərəfli düşünülmüş siyasət, ölkə iqtisadiyyatının dayanıqlığının möhkəmləndirilməsi üzrə görülən cəsarətli addımlar, makroiqtisadi sabitliyin təmini üzrə mühüm tədbirlərlə yanaşı, sosial məsələlərin həlli ön planda saxlanılmaqla pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək proqramı, elektron sistemlər üzərindən proaktiv xidmətlərin göstərilməsinə xüsusi diqqət yetirilməklə, onların davamlı tərəqqisi təmin edilir.

Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2018-ci ildə imzalanmış fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin yaradılmasının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsi olmaqla əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır.

## Prokurorluq orqanlarında baş verən yeniliklər və dəyişikliklər, fəaliyyətin təkmilləşməsi üzrə görülən tədbirlər ölkədə aparılan kardinal islahatların tərkib hissəsidir

Müstəqil dövlətimizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisi prokurorluqda adekvat dəyişikliyin baş verməsinə hərtərəfli şərait yaratmaqla bu dövlət təsisatının ardıcıl və sistemli inkişafına səbəb olmuşdur.

Ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq Azərbaycan prokurorluğu bu gün əvvəlki dövrlərlə müqayisədə daha çox inkişaf etməklə müasirləşmiş və fəaliyyətini ən yüksək tələblər səviyyəsində təkmilləşdirmişdir. Prokurorluq orqanları hazırkı səviyyədə formalaşanadək tarixin müxtəlif dövrlərindən heç də həmişə hamar olmayan, bəzən isə çətinliklərlə və mürəkkəbliklərlə müşahidə olunan inkişaf yolu keçmişdir. Lakin Azərbaycan Prokurorluğunun kollektivi əsas etibarı ilə xalqımızın öz müstəqilliyi uğrunda apardığı tarixi mübarizənin önündə olaraq şərəfli bir fəaliyyət yolu keçməklə inkişaf etməkdə davam etmiş, hansı şəraitdə fəaliyyət göstərməsindən asılı olmayaraq son nəticədə xalqına və dövlətinə sədaqətlə qulluq etməyi bacarmış, dövlətçiliyimizin və stabilliyin qorunması, cinayətkarlığa və qanun pozuntularına qarşı mübarizə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini vermişdir.

Prokurorluq işçilərinə peşə bayramı kimi əlamətdar bir günü bəxş edən şəxsiyyət də məhz Heydər Əliyev olmuş, Ulu Öndərin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilməklə, prokurorluğun cəmiyyətdəki rolu və yerinə dövlət səviyyəsində münasibət bildirilmişdir.

Heydər Əliyevin 26 aprel 2000-ci ildə prokurorluğun rəhbər işçiləri ilə keçirdiyi müşavirədəki tarixi nitqində qeyd olunmuş, prokurorluq orqanları qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı aparılmış hərtərəfli islahatlar nəticəsində Azərbaycan prokurorluğu həmin vaxtadək fəaliyyətində mövcud olmuş neqativ cəhətlərdən təmizlənməklə struktur və mahiyyət baxımından tam yenidən qurularaq yeni məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ hüquqi baza əsasında fəaliyyət göstərən, xalqımızın və dövlətçiliyimizin maraqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir.

Həyata keçirilən ardıcıl və sistemli məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətini tənzim edən, beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik maraqlarına əsaslanan "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamə və digər normativ sənədlərin dövlət başçısı tərəfindən təsdiq edilməsi prokurorluğun normativ bazasını gücləndirmiş və hərtərəfli təmin etmişdir.

Sonrakı illərdə prokurorluğa etimad və inamın yüksəlməsinin nəticəsi olaraq prokurorluq orqanları qarşısında daha önəmli və mühüm vəzifələr qoyulmuş, Azərbaycan Prezidentinin siyasi iradəsinə uyğun olaraq dövlətin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş korrupsiya və rüşvətxorluqla mübarizə ilə bağlı cinayətlər üzrə istintaq və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi işi bu dövlət təsisatına həvalə edilmiş, prokurorluğun fəaliyyətini tənzimləyən qanunvericiliyin daha da təkmilləşdirilməsi prosesi mütəmadi qaydada həyata keçirilmişdir.

Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülməklə 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli 509 nömrəli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edilməklə prokurorluq orqanlarına işə qəbulun ən sivil və demokratik üsulu olan müsabiqə yolu ilə, şəffaf prosedurlar əsasında aparılması qaydaları müəyyən edilmişdir. Prokurorluq orqanlarına işə qəbulun müsabiqə əsasında həyata keçirilməsi prokurorluğun kadr tərkibinin hərtərəfli, savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır. Bununla əlaqədar olaraq 2002-ci ildən başlayaraq prokurorluğa işə qəbul Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə aparılmaqla, mütəmadi olaraq keçirilmiş müsabiqələr nəticəsində qulluğa qəbul edilənlər hazırda prokurorluq orqanlarının kadr korpusunun 70 faizini təşkil etmişdir.

Prokurorluq orqanlarına və prokurorluq işçilərinə böyük inam və etimadın, yüksək qayğının növbəti ifadəsi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Prokurorluq orqanlarının müasir dövrün yüksək tələblərinə cavab verən dövlət təsisatı səviyyəsində təkmilləşdirilməsində xüsusi əhəmiyyətə malik olmuş bu dövlət proqramının həyata keçirilməsi prokurorluğun hüquq sisteminin inkişafı prosesində rolunun artırılmasına, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmasına, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılmasına, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsinə, beynəlxalq əlaqələrin genişləndirilməsinə, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılmasına səbəb olmuşdur.

Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ümumbəşəri problemlər sırasında xüsusi yer tutan korrupsiya və onun təzahürləri ilə mübarizə istiqamətində də səmərəli addımlar atılmış, korrupsiyaya qarşı mübarizə ölkədə həyata keçirilən islahatların ən mühüm tərkib hissəsi olmuşdur.

Korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alılnması və təqibi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunması, vəzifəli şəxslərin fəaliyyətində şəffaflığın və dürüstlüyün təmin olunması məqsədilə 03 mart 2004-cü il tarixli ölkə Prezidentinin sərəncamı ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılmışdır.

Korrupsiyaya qarşı kompleks əks təsir tədbirlərinin təmin olunması və sosial bəlaya qarşı mübarizənin beynəlxalq standartlar əsasında həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası 2003-2004-cü illərdə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına, Avropa Şurasının Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti və korrupsiyaya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında konvensiyalarına qoşulmuşdur.

Həmin beynəlxalq sənədlərin implementasiyası çərçivəsində müvafiq tələblərə cavab verən qanunvericilik bazası formalaşmaqla xarici dövlətlərin ən qabaqcıl nailiyyətlərindən istifadə olunmasına və təcrübə mübadiləsinə mühüm əhəmiyyət verilmişdir.

Cinayətkarlığın yeni və daha mürəkkəb formalarının meydana çıxmasına gətirən qloballaşma, cəmiyyətlərin sıx inteqrasiyası və informasiya texnologiyalarının sürətli inkişafı prosesləri hüquq mühafizə orqanları üçün də yeni çağırışlar formalaşdırır. Bu yeni çağırışlarla şərtlənən hazırkı dövrdə zamanın tələblərinə uyğunlaşmanın əhəmiyyətini dərk edərək ölkəmizdə ictimai həyatın və dövlət idarəetməsinin bütün sahələrində islahatlar reallaşdırılır ki, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti ortaya çıxmışdır.

Bu zərurət 1 may 2020-ci il tarixdə Prezident İlham Əliyevin Azərbaycan Respublikasının yeni təyin olunmuş Baş prokurorunu videoformatda qəbulu zamanı bir daha vurğulanmış, prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur.

Belə ki, hüquq-mühafizə orqanlarında, o cümlədən prokurorluqda genişmiqyaslı islahatların aparılması məqsədilə yüksəkixtisaslı kadr korpusunun formalaşması mühüm şərt kimi qeyd olunmuşdur. Yüksək keyfiyyətli təhsil almış, gənc, peşəkar, bilikli, müasir yanaşmalara malik kadrların önə çəkilməsi, kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməsi, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilərin yüksək nəzəri biliklərə malik olması, eyni zamanda dövlətçiliyə sədaqət prinsiplərini üstün tutması, həmçinin təcrübəli kadrların da öz biliklərini gənc nəsillə bölüşməsi diqqət yetirilməli olmalı məqamlar kimi vurğulanmışdır.

Həmçinin qeyd edilmişdir ki, korrupsiyaya qarşı mübarizənin tam səmərəli şəkildə aparılması, qanunun aliliyini təmin etməklə sosial ədalətin bərqərar olunması kimi hədəfləri daim diqqət mərkəzində saxlamaqla bu istiqamətdə zəruri islahatlar davam etdirilməlidir. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə prokurorluğun fəallığı artmalı və prinsipiallıq nümayiş etdirilməlidir. Burada həm inzibati yollardan, həm institusional dəyişikliklərdən, həmçinin cəza tədbirlərindən istifadə olunmasına diqqət yetirilməklə tədbirlərin kompleks xarakter daşıması göz önündə tutulmalıdır.

Azərbaycan Respublikası Prezidentinin verdiyi göstəriş və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə Baş Prokurorluq üzrə geniş Fəaliyyət Planı təsdiq olunaraq icra edilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir. Fəaliyyət planında dövlət başçısının proqram xarakterli nitqindən irəli gələrək prokurorluq orqanlarının üzərinə düşən hər bir vəzifənin yerinə yetirilməsi üçün konkret tədbirlər nəzərdə tutulmuşdur. Prezidentin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin icrası ilə bağlı prokurorluq orqanlarında işin səmərəliliyinin artırılması üzrə ciddi islahatların həyata keçirilməsinə başlanılmış, qısa zaman ərzində struktur və bir sıra kadr islahatları həyata keçirilmişdir. Hazırda bu proses intensiv olaraq uğurla davam etdirilir.

Dövrün tələblərinə cavab verən müasir, dinamik, daha operativ və peşəkar prokurorluğun formalaşdırılması qarşıda dayanan başlıca vəzifədir. Bu baxımdan prosessual fəaliyyətə prokuror nəzarəti gücləndirilməli, ibtidai istintaqın keyfiyyəti yüksəldilməli, dövlətin təhlükəsizliyi, eləcə də vətəndaşların hüquq və azadlıqlarına qəsd edən cinayətlərə qarşı mübarizənin kəsəri artırılmalı, dövlət və özəl sektorlarda korrupsiyanın bütün təzahür formalarına qarşı ciddi mübarizə tədbirləri tətbiq edilməli, məhkəmələrdə dövlət ittihamının müdafiəsi işi keyfiyyətcə yeni mərhələyə qaldırılmaqla balanslaşdırılmış cəza siyasətinə riayət edilməsinə nail olunmalı, bu istiqamətdə vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına xüsusi diqqət yetirilməli, bütövlükdə prokurorluğun insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində iştirakı dərinləşdirilməlidir.

Həmçinin islahatların geniş vüsət aldığı hazırkı dövrdə Azərbaycan prokurorluğu qarşısında duran ümdə vəzifələrdən biri də ölkəmizdə reallaşdırılan sosial-iqtisadi inkişafa hədəflənən islahatlar kontekstində vergi və gömrük siyasətinin optimallaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması, ümumilikdə isə kölgə iqtisadiyyatına qarşı təsirli mübarizənin aparılması kimi mühüm strateji tədbirlərdə hüquqi vasitələrlə yaxından iştirak, hüququn aliliyi təmin edilməklə özəl sektorun inkişafına dəstək göstərilməsi, həmçinin dövlət idarəetməsində şəffaflığın təmin edilməsidir. Bu məqsədlərə nail olunmasında dövlət başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq qabaqcıl beynəlxalq təcrübənin və beynəlxalq standartların öyrənilməsi və cari fəaliyyətdə tətbiqinə də səy göstərilməlidir.

Sadalananları ümumiləşdirməklə qeyd etmək olar ki, qarşımızda prokurorluğun müasir yanaşmaya malik, çevik, eyni zamanda peşəkar bir quruma çevrilməsi ilə bağlı önəmli vəzifələr dayanır ki, bu məqsədlərə nail olmaq üçün prokurorluğun hər bir əməkdaşı üzərinə düşən vəzifələrin icrası ilə bağlı səylə çalışmalıdır.

Hesab edirik ki, bu istiqamətdə institusional islahatların həyata keçirilməsi nəzərdən keçirilməli, məsuliyyətlilik və hesabatlılığın artırılması təmin edilməklə yüksək şəffaflıq səviyyəsinə nail olunmalıdır. Qeyd edilən tədbirlərin reallaşdırılması ilə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüş əldə edilməlidir.

*Əminliklə qeyd etmək istəyirəm ki, prokurorluq işçiləri bundan sonra da ölkə Prezidentinin həyata keçirdiyi müdrik və uzaqgörən dövlət siyasətini tam dəstəkləyərək, respublikamızın hüquqi dövlət quruculuğu prosesində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində fəal iştirak edərək prokurorluğun fəaliyyətinin müasir dövrün standartlarına uyğun qurulması istiqamətində səylərini daha da artıracaq, üzərlərinə düşən bütün vəzifələri yüksək məsuliyyət hissi ilə vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nail olaraq cinayətkarlığın bütün təzahürlərinə və digər qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyimizin və suverenliyimizin müdafiəsi, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsinə öz töhfələrini verəcəklər.*

***Kamran ƏLİYEV,***
***Azərbaycan Respublikasının Baş prokuroru,***
***II dərəcəli dövlət ədliyyə müşaviri***



# Mərhəmətin, humanizmin İLHAM ƏLİYEV örnəyi

Əvvəli 1-ci səh.

Azərbaycandakı durumu işğalçı Ermənistandakı vəziyyətlə müqayisə edən Prezident deyib ki, koronavirus bu ölkəni iflic duruma salıb. Ermənistanda gündən-günə yoluxma, ölüm faktları sürətlə artır. Bunun da səbəbi, əlbəttə ki, ölkə rəhbərliyinin heç bir qabaqlayıcı tədbirlər görməməsi, əhalinin sağlamlığını ciddiyə almamasıdır.

Elə bunun səbəbidir ki, əgər Azərbaycan Prezidenti bu istiqamətdə gördüyü işlərə görə hər gün yüzlərlə təşəkkür məktubu alırsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir.

Cənab İlham Əliyev həmçinin inkişaf etmiş ölkələrlə də müqayisə aparıb. Məsələn, bu gün inkişaf etmiş elə ölkələr var ki, orada ölənlərin sayı Azərbaycanda yoluxanların sayından çoxdur. Hansı ki, həmin ölkələrdə səhiyyə sistemi həmişə etalon, bir nümunə kimi göstərilib: "Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, on minə yaxın insan ölüb. Bizdə isə, sadəcə, yoluxanların sayı 8 minə qədərdir. Ona görə bizdəki yanaşma, - hər bir yoluxmuş insana tibbi xidmət göstərilir, - ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaq".

İnkişaf etmiş dövlətlərlə müqayisə aparan Prezident Azərbaycanın əldə etdiyi üstünlüyün səbəblərindən də bəhs edib. Təbii ki, Azərbaycanın pandemiyadan az itki ilə çıxmasının əsl səbəbi dövlət başçısının həyata keçirdiyi qabaqlayıcı tədbirlərdir. Həm əhalinin sağlamlığını əsas tutan, həm də makroiqtisadi vəziyyəti sabit saxlamağa çalışan dövlət öz imkanları hesabına müxtəlif layihələr reallaşdırdı, eyni zamanda özünün sənaye imkanlarından da istifadə etdi. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. Bu gün iki zavod fəaliyyətdədir. Dezinfeksiya vasitələri və həkimlər üçün xüsusi geyimlər, kombinezonlar ölkəmizdə istehsal olunur.

Bununla yanaşı ölkəmizdə qısa zaman ərzində tibbi klinikalar tikilib istifadəyə verilib. Koronavirus xəstələrini müalicə etmək üçün ən qabaqcıl xəstəxanalar ayrılıb və bu xəstəxanaların sayı 20-dən çoxdur. 4 modul tipli xəstəxana quraşdırılıb. Bundan sonra hələ daha 6 belə xəstəxananın quraşdırılması nəzərdə tutulub. Həmçinin yeni laboratoriyalar alınıb. Hazırda laboratoriyaların sayı 20-dən artıqdır.

Eyni zamanda karantin şəraitində qalan vətəndaşlar üçün də xüsusi şərait yaradılıb. Çünki onlar 4-5 ulduzlu hotellərdə, eyni zamanda, Atletlər Kəndində yerləşdirilir. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir.

Prezidentin söylədiyi kimi, bugünə qədər görülmüş işlər və işlərin nəticələri məhz dövlət siyasətinin təzahürünü əks etdirir. Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb.

Bütün bunlar Azərbaycan dövlətinin qlobal pandemiya ilə mübarizədə gördüyü genişmiqyaslı işlərin tərkib hissəsidir. Elə bu uğurlara əsaslanaraq deyə bilərik ki, Azərbaycan postpandemiya dövründə də bəzi dövlətlərdən fərqli olaraq sosial-iqtisadi cəhətdən böyük problemlərlə üzləşməyəcək. Bunu beynəlxalq iqtisadi təşkilatlar da təsdiqləyirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusla mübarizədə nümunəvi ölkələrdəndir

## Prezident İlham ƏLİYEV: "Biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq"

Əvvəli 1-ci səh.

### Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ianə həmrəylik nümunəsidir

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən də Azərbaycan koronavirusa qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilir. Ölkəmiz pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Belə ki, martın əvvəlində təşkilatın mütəxəssisləri Azərbaycana dəvət olundu. 9-13 mart tarixlərdə təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə vəziyyətlə tanış olaraq görülmüş işlərə müsbət qiymət verdi.

Koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayan Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırdı. Mart ayının 13-də Azərbaycan tərəfindən ÜST-ün strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalandı.

Dövlət başçısının təşəbbüsü ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edildi və ilkin olaraq Prezidentin Ehtiyat Fondundan bura 20 milyon manat vəsait ayrıldı. Bu gün artıq sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 110 milyon manatı ötüb. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir. İyunun 9-da üç modul tipli xəstəxananın açılışında çıxışı zaman Prezident İlham Əliyev Koronavirusla Mübarizəyə Dəstək Fonduna bu qədər məbləğin yığılmasını xalqımızın çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilməsi kimi qiymətləndirib: "Ona görə mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm. Eyni zamanda, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək".



### "Dünya birliyi vahid mövqedən çıxış etməlidir"

Pandemiya dövründə ölkəmiz beynəlxalq arenada, iqtisadi, sosial sahədə özünü güclü dövlət kimi göstərdi. O da vurğulanmalıdır ki, Azərbaycan beynəlxalq miqyasda özünü çox məsuliyyətli aparır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşünü təşkil etməklə dünyanı birləşdirdi. Azərbaycan BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüs irəli sürdü, bu təşəbbüs Qoşulmama Hərəkatının üzvləri tərəfindən yekdilliklə dəstəkləndi. Ölkə rəhbəri bu mövzuya toxunarkən bildirdi ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir: "Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda, bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək.

Çünki burada əsas məsələ özünə qapanmamaqdır. Biz yaxşı xatırlayırıq ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə də özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir. Bununla paralel olaraq biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir. Bu 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir".

Azərbaycan COVID-19-la mübarizə məqsədilə fərdi qaydada 14 ölkəyə, ÜST xətti ilə Quşulmama Hərəkatına üzv 15 ölkəyə, ümumilikdə 29 ölkəyə humanitar yardım göstərib. Bu da onu deməyə əsas verir ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bu da bizim həmrəylik və əməkdaşlığa sadiqliyimizə dəlalət edir.

"Bax, budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan bu bəla ilə təkbaşına, bu cür, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin. Hələ bəlkə 10 il, 20 il bundan əvvəl kimin ağlına gələrdi ki, Azərbaycan 30-a yaxın ölkəyə humanitar yardım göstərə bilər. O dövrdəki bəzi ölkələr indi o biri ölkələrə çatacaq humanitar yardımı da özlərinə, necə deyərlər, götürmüşdülər. Ona görə biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq. Ona görə bizə olan rəğbət və hörmət gündən-günə artır", - deyə dövlət başçısı əlavə edib.

Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə təkcə insanlar deyil, dövlətlər də bir olmağa, birlikdə mübarizə aparmağa borcludurlar. Ölkələr bir-birinə yardım edərsə, bu bəladan uzaqlaşmaq və yaxud onun qarşısını almaq mümkündür. COVID-19-a yalnız qarşılıqlı dəstək, özünə qapanmama və birgə səylərlə qalib gəlmək olar. Çünki hazırkı çətin vəziyyətdə dünyanın həmrəyliyə və əməkdaşlığa ciddi ehtiyacı var.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusa daha 336 yoluxma faktı qeydə alınıb, 183 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 336 yoluxma faktı qeydə alınıb, 183 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 9218 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 5113 nəfər müalicə olunaraq sağalıb, 113 nəfər vəfat edib. Aktiv xəstə sayı 3992 nəfərdir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 368 min 254 test aparılıb. Bugünkü test sayı isə 5600-dür.

# Ölkəmiz COVID-19-a qarşı mövcud imkanlarını daha da genişləndirir

Qlobal formada pandemiya ilə mübarizə davam edir. Dünya COVID-19-u birdəfəlik məhv etməyin hələlik mümkün olmadığını anlayaraq, hər an ayıq-sayıq dayanaraq onunla bərabər yaşamağa məcburdur. Çünki ani bir sərvaxtlıq bütöv xalqları, ümumilikdə insanlığı yer üzündən silə bilər. Gözəgörünməz bəla çox təhlükəli, aqressiv və səhv bağışlamazdır...

Ölkələr üçün virusdan qorunmağın ən təsirli mexanizmi isə sərt karantin rejimidir. COVID-19-un sürətlə yayıldığı birinci dalğasında, demək olar ki, dünyanın hər yerində ondan qorunmaq üçün məhz bu yol seçildi. Bəlkə də sərt karantin rejimi tətbiq olunmasaydı, hazırkından daha dəhşətli vəziyyətlə üzüzə qalardıq...

Amma o da reallıqdır ki, ömür boyu karantin rejimində yaşamağın nəticəsi də elə dünyanı sona sürükləmək anlamına gəlir... Çıxış yolu isə qızıl ortanı tapmaqdır. Ya vaksin tapılana qədər tələb olunan qaydalar əsasında yaşamımızı davam etdirməliyik, ya da...

### Vətənimizdə koronavirusa yoluxanlara ən düzgün, ən humanist yanaşma sergilənir

Qlobal bəla Azərbaycandan da yan keçməyib və ölkəmizdə koronavirusla mübarizə çərçivəsində mərhələli şəkildə mühüm addımlar atılır. COVID-19-un yol açacağı mümkün faciələrdən sığortalanmaq üçün zəruri tədbirlər görülür. Prezident İlham Əliyevin rəhbərliyi altında qlobal böhrana qarşı həyata keçirilən sosial-iqtisadi model özünü doğrultdu. Qabaqlayıcı tədbirlər pandemiyanın geniş vüsət almasının qarşısını almağa, onu nəzarətdə saxlamağa imkan verdi.

Hazırda Azərbaycanda mövcud olan səhiyyə imkanları da buna kömək etdi. Belə ki, son 16 il ərzində ölkəmizdə bütövlükdə 700-dən çox tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Koronavirus xəstələrini müalicə etmək üçün ən qabaqcıl 20 xəstəxana ayrılıb, ümumi sayı 20-dən çox yeni laboratoriyalar alınıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Ölkəmizdə koronavirusdan ölənlərin sayının az olmasının əsas səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Göründüyü kimi, Azərbaycanda koronavirusa yoluxanlara yanaşma ən düzgün, ən humanist yanaşmadır. Digər tərəfdən, dövlət başçısının tapşırıq və tövsiyələrinə əsasən həssas təbəqələrə sosial dəstək verildi, onlara 190 manat birdəfəlik ödənişlər ayrıldı və bu dəstəyin əhatə etdiyi insanların sayı xeyli genişləndirildi. Dövlətimiz hər zaman olduğu kimi, bu çətin dövrdə də bütün səylərini vətəndaşının sağlamlığı, təhlükəsizliyi və yaşam şərtlərinin yaxşılaşdırılması istiqamətinə yönəltdi.

### Sanitar-epidemioloji vəziyyət nəzarətdədir

Amma koronavirus təhlükəsi bitməyib və hər an yenidən alovlana bilər. Elə yumşalmalar ərəfəsində müəyyən qaydalara əməl edilməməsi səbəbindən yoluxma sayında artımın müşahidə olunması bunu təsdiqləyir.

Buna görə də yeni növ koronavirus xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilmiş və xəstəliyin yayılma dinamikası nəzərə alınaraq ölkə üzrə



xüsusi karantin rejiminin 1 iyul 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verilib.

Ölkə üzrə sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edilmişdir. Bu baxımdan COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək.

Bu ərazilərdə bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılır (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti, həmçinin onların əməkdaşlarına məxsus şəxsi avtomobillərin, eyni zamanda yaxın qohumlarının dəfnində iştirakla əlaqədar vətəndaşların şəxsi avtomobillərinin hərəkəti istisna olmaqla);

Bu müddətdə əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır.

Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq digər günlərdə 65 yaşdan yuxarı insanların ciddi zərurət olmadan yaşayış yerlərindən və ya olduğu yerlərdən çıxmamaları tövsiyə olunur. Eyni zamanda kütləvi yoluxma hallarının qarşısının alınması məqsədilə xüsusi karantin rejimi müddətində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, ictimai iaşə obyektlərində insanların bir yerdə 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağasına, qoruyucu vasitələrdən istifadə edilməsi qaydalarına ciddi əməl olunması tələb edilir.

Həftəsonu sərtləşmənin qonşu ölkələrdəki praktikaya əsaslandığını söyləyən TƏBİB-in xəstəliklərin profilaktikası və nəzarəti şöbəsinin müdiri Yaqut Qarayeva bildirib ki, Türkiyədə həftəsonu sərtləşmə təcrübəsi araşdırılıb: "Orada bunun nəticələri 10 faiz azalma ilə özünü göstərir. Amma bu, 1-2 gün daxilində özünü göstərə bilməz. Bu xəstəliyin 14 günlük inkubasiya dövrü var. Həftəsonu karantinin nəticəsini ən azı 10 gün sonra görəcəyimizə ümid edirik".

### Pandemiya dövründə hava nəqliyyatı ilə sərnişin daşımaları

Bununla yanaşı, iyunun 15-dən daxili uçuşların bərpası nəzərdə tutulur və ilkin mərhələdə Naxçıvana həftədə iki uçuşun olması planlaşdırılır. Nazirlər Kabineti tərəfindən təsdiqlənən "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"da göstərilir ki, sərnişinlər uçuşdan ən azı 4 saat əvvəl aerovağzal kompleksinə gəlməlidirlər.

Qaydalara əsasən, aviaşirkətlərin bütün reyslərində əl yükünün daşınmasına icazə verilmir. Aviaşirkətlərin qaydalarına əsasən, müəyyən edilən yalnız şəxsi istifadə əşyalarının (noutbuk, portfel, qadın çantası və s.) daşınması mümkündür.

Həmçinin, əhali sıxlığının qarşısının alınması məqsədilə qarşılayan və yola salan şəxslərin terminala girişi qadağandır.

Sərnişinlər Azərbaycan Respublikasının hava limanlarında tətbiq edilən xüsusi qayda, prosedur, məhdudiyyət və göstərişlər barədə uçuşu icra edən aviadaşıyıcı tərəfindən əvvəlcədən xəbərdar ediləcəkdir.

Bu tələbləri pozan şəxslər qanunvericiliyin tələblərinə uyğun olaraq məsuliyyətə cəlb olunacaqlar.

### Cəmiyyətimiz yeni davranış qaydaları çərçivəsində yaşamağa öyrəşməlidir

Bəli, indi cəmiyyətimiz yeni davranış qaydaları çərçivəsində yaşamağa öyrəşməlidir. Koronavirusa yoluxmamaq üçün bütün qapalı yerlərdə, ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində və digər yerlərdə maskadan istifadə mütləqdir. Hər kəs məsafə saxlamalı, şəxsi gigiyena qaydalarına riayət etməlidir. Tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri - insanları 95 faiz yoluxmadan qoruyur.

Artıq bu bir reallıqdır ki, koronavirus həyatımızın bir parçasına çevrilib. Onu yox kimi saymaq, ondan qorxmamaq əvəzinə ona qarşı davranışları, mübarizə qaydalarını öyrənmək lazımdır. Sərt karantin rejiminin yumşaldılması COVID-19 təhlükəsinin sovuşması anlamına gəlmir. Bütün tədbirlərə baxmayaraq, virus bizimlədir və yox olmayıb. Yaxın zamanda isə vaksinin əldə edilməsi gözlənilmir. Bu isə o deməkdir ki, yeni qaydalar çərçivəsində yaşamağa alışmaq lazımdır, özü də tezliklə...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# 2020-ci il "Könüllülər ili"dir



● Xoş məram



# Gəncləri vahid niyyət ətrafında birləşdirən fəaliyyət

**Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beş il əvvəl ekoloji sahədəki problemlərin aradan qaldırılmasına dəstək təşəbbüsü ilə mühüm bir addım atmışdır. Bununla bağlı müxbirimiz "Yaşıl ASAN" proqramının rəhbəri, İnsan resursları və təlim şöbəsi, könüllülərlə iş sektorunun aparıcı məsləhətçisi Səkinə Həsənova ilə görüşmüşdür. Son illər könüllülük hərəkatının geniş vüsət aldığını diqqətə çatdıran S.Həsənova demişdir:**



- "ASAN xidmət" fəaliyyətə başladığı ilk günlərdən könüllülərə, yaradıcı gənclərə dəstək göstərir və onların inkişafı üçün münbit şərait yaradır. Bu imkanlardan və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ekoloji sahədəki fəaliyyətindən həvəslənən bir qrup "ASAN könüllüsü" 2015-ci il mayın 1-də "Yaşıl ASAN"ın yaradılması ideyasını irəli sürmüşlər. İlkin olaraq ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaq qərara alınmışdı. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin birgə həyata keçirdiyi "Hər kağızı bir yarpağa dəyişək" layihəsində "Yaşıl ASAN"ın təşəbbüsçüləri də fəal iştirak etmişlər. Onların ideya birliyi sayəsində Bakı şəhərində və regionlarda yerləşən "ASAN xidmət" mərkəzlərində istifadəyə yararsız kağızların qəbulu məntəqələri yaradıldı. Nəticədə Bakı, Bərdə, Sumqayıt, Sabirabad şəhərlərində keçirilən "Yaşıl Dağ" aksiyası çərçivəsində 200 tona yaxın kağız tullantısı toplandı. Bununla da təxminən 3400 ağacın kəsilməsinin qarşısı alındı.

2015-ci ildən başlayaraq "Yaşıl ASAN" təşəbbüsçüləri Beynəlxalq Sahilyanı Təmizlik Gününün qeyd olunması çərçivəsində Xəzər dənizinin sahilyanı ərazilərinin təmizlənməsi aksiyasına başlamışlar. Hər il olduğu kimi, bu il də həmin aksiyada yüzlərlə "ASAN" könüllüsü iştirak edir.

Dörd ildir ki, Bakı şəhərində, eləcə də "ASAN Xidmət" mərkəzlərinin fəaliyyətdə olduğu regionlarda ekoloji müvəkkillər institutu yaradılmış, çoxsaylı layihə və tədbirlər keçirilmişdir. Bunun nəticəsi olaraq "Təşəbbüs" bu gün "ASAN School" könüllülük məktəbinin ekoloji proqramına çevrilmişdir. Proqramın üç əsas məqsədi var: ekoloji maarifləndirmə, ətraf mühitin mühafizəsi və sağlam həyat tərzinin təbliği. Bu illər ərzində "Yaşıl ASAN" komandasının tərkibi yüzlərlə əlavə gəncin hesabına daha da böyümüşdür. Bununla da dostluq, birlik və ümumi uğur prinsiplərinə layiqli töhfələr verən gənclərin təşkilatçılıq bacarığı daha da inkişaf etmişdir. Onların səyi ilə məktəblilərdə və vətəndaşlar arasında ağacəkmə aksiyaları, veloyürüşlər, yoqa və digər idman tədbirləri həyata keçirilmişdir. Ümumilikdə bu layihələrdə on minlərlə insan iştirak etmiş və faydalanmışdır.

Bu qəbildən olan uğurlu layihələr sırasında "Sahibsiz heyvanlara qayğı göstərək!" adlı aksiyasını, eko-memarlıq layihəsini, işğal altında olan Dağlıq Qarabağ torpaqlarının ekoloji problemləri ilə gənclərin tanışlığını hədəfləyən "Dağlıq Qarabağa doğru" ekoloji layihəni, Füzuli rayonunun Horadiz şəhərində məktəblilərlə görüşü və ağacəkmə aksiyasını, o cümlədən piknik mədəniyyətinin formalaşmasını təbliğ edən Bakı Piknik Festivalını qeyd etmək yerinə düşər.

Proqramın əsas hədəflərindən biri ekoloji layihələrin idarəedilməsi sahəsində könüllülərdə ilkin bacarıq-qabiliyyət formalaşdırmaqdır. Eyni zamanda ekologiya ilə mədəniyyət, memarlıq və iqtisadiyyatyönümlü layihələrin irəli sürülməsidir. Belə layihələrdən biri "Yaşıl İncəsənət" layihəsidir ki, gənc rəssamlar tərəfindən sevilir və mütəmadi olaraq gənclər əl işlərini sərgi müsabiqəsi üçün hazırlayırlar. Artıq üçüncü dəfədir ki, keçirilən bu layihələrdə əsas məqsədi müasir incəsənətdə mənzərə və natürmort janrlarından geniş istifadə etmək, ətraf mühitin mühafizəsinə, Azərbaycanın müxtəlif ərazilərindəki flora və fauna nümunələrinə, təbiət qoruqlarının bənzərsiz gözəlliklərinə qayğı və diqqəti artırmaqdır. Rəsm əsərləri münsiflər heyəti tərəfindən qiymətləndirildikdən sonra üç ən yaxşı müəllif-rəssam xüsusi diplom və pul mükafatları ilə təltif olunur.

Üç ilə yaxındır ki, ilk dəfə olaraq "ASAN" könüllülük məktəbinin "Yaşıl ASAN" ekoloji proqramının icrasında respublikada yaşayan əcnəbi gənclər də iştirak edirlər. 2017-2019-cu illər ərzində proqramda Böyük Britaniya, Serbiya, Niderland, Pakistan, Çin, Hindistan, Qazaxıstan, Türkiyə, Əlcəzair, Tailand, Honkonq, Türkiyə, Nigeriya, Maldiv, Liberiya, Əfqanıstan və Gürcüstan kimi ölkələri təmsil edən gənclər proqramın iştirakçısı olmuşlar. Ümumilikdə bu illər ərzində 34 əcnəbi gənc "ASAN" könüllüsü adını qazanmışdır.

Hər il dünyada milyonlarla insan bir araya gələrək hamının diqqətini iqlim dəyişikliyi probleminə yönləndirilməsi məqsədilə bir saatlıq işıqları və həyat üçün vacib olmayan digər elektrik cihazlarını söndürməyə çağıran "Yer Saatı" - "Earth Hour" aksiyasına dəstək olub. Ölkəmiz ilk dəfə 2015-ci ildə bu aksiyaya qoşulub. Bakı və regionlarda yerləşən "ASAN xidmət" mərkəzlərinin fasad işıqları bir saatlıq söndürülür və bu rəmzi hərəkətlə insanlar enerjiyə qənaətə təşviq edilir. Ölkəmizdə xüsusi karantin rejiminin elan olunmasına baxmayaraq, Azərbaycan üzrə Beynəlxalq "Yer saatı" kampaniyasının (www.earthhour.org) rəsmi koordinatoru olan IDEA İctimai Birliyi tərəfindən bugünün qeyd olunmasına dair çağırış edilmişdi. Bu çağırışa dəstək olaraq "Yaşıl ASAN" ekoloji proqramı Beynəlxalq "Yer saatı" aksiyasına qoşulmuş və 200-dən çox "ASAN" könüllüsü evdə qalmaq şərti ilə işıqlarını bir saat söndürməklə çağırışı dəstəkləmişdilər. Bununla könüllülük fəaliyyətinin ölkəmizdə yeni mərhələyə qədəm qoyduğunun və böyük potensiala malik olduğunun şahidinə çevrildik.

Gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə Prezidentin sərəncamı ilə 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilmişdir. Bu, könüllülərə, habelə könüllü təşkilatlara verilən böyük qiymət və dəyərdir. Bu, məsuliyyətli işdir və biz keçən illərdən daha çox çalışmalı, ölkəmiz üçün faydalı və gənclərin inkişafına töhfə verəcək uğurlu layihələri həyata keçirməyə planlaşdırmışıq.

- Koronavirus pandemiyası ilə mübarizədə, deyəsən, könüllülər daha çox fərqlənirlər.

- Bəli, dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışına sadiq qalaraq "ASAN School" könüllülük məktəbinin "Yaşıl ASAN" proqramı tərəfindən Bakı şəhərində və regionlarda yaşayan könüllülərimiz xüsusi karantin rejiminin başladığı gündən sosial şəbəkələrdə "Evdə qal!", "Təbiəti qoru!" devizi altında 100-dən çox maarifləndirici postalar paylaşıblar. Sahibsiz heyvanlara qayğı göstərmək məqsədilə vətəndaşları yaşadıqları bina və evlərin qarşısında bir ovuc yem və su qabları yerləşdirməyə çağırıblar. Həmçinin könüllülər tərəfindən evdə tullantı materiallardan istifadə edərək sanitayzerlərin hazırlanması ilə bağlı maraqlı videoçarxlar çəkilib paylaşılmışdır. Bütün dünyanı başına götürən koronavirus pandemiyası ilə əlaqədar könüllülər mütəmadi olaraq onlayn maarifləndirici görüşlər keçirirlər, karantin rejiminin tələbləri çərçivəsində müxtəlif sosial şəbəkələr üzərindən və onlayn videogörüşlər vasitəsilə indiyədək 59 ekoloji maarifləndirici tədbir keçirilib ki, bu zaman 694 nəfərdən çox insan məlumatlandırılıb.

*Rəhman SALMANLI, "Azərbaycan"*

● Xeyirxah aksiya

# Könüllü qanvermə

**Mərhəmət, xeyirxahlıq duyğuları qəlbdən gəlir və insanın fitrətən onda mövcud olan mənəvi keyfiyyətlərinin əyani təzahürü kimi çıxış edir. Başqalarına həyat bəxş etmək və ya həyat üçün zəruri yardımı, dəstəyi göstərmək isə mənəvi yetkinliyin ən dolğun təcəssümüdür.**





Qan xəstəliyi olan insanlara kömək etmək məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çağırışı və təşəbbüsü ilə ölkəmizdə geniş vüsət alan könüllü qanvermə aksiyası da cəmiyyətdə könüllü əsasda mərhəmət göstərməyin, xeyirxah əmələ imza atmağın gündəlik həyatın üstün prinsiplərinə çevrilməsinə səbəb oldu.

Hər gün insanlar istər fərd, istər qrup şəklində könüllü olaraq, böyük həvəslə qanvermə aksiyalarına qoşulurlar. Onların sırasında dövlət qurumları da diqqəti cəlb edir. Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də bu nəcib aksiyaya öz töhfəsini verdi. Nazirliyin əməkdaşları Milli Hemotologiya və Transfiziologiya Mərkəzinə yollanaraq burada könüllü olaraq qan veriblər. Əvvəlcə donorlar olaraq onların sağlamlıq vəziyyəti müəyyən edilib və sonra qan götürülüb. Toplanan qan ehtiyatı laboratoriyada bir daha müayinə edildikdən sonra həmin xəstələrə yardım üçün istifadə olunacaq.

Əməkdaşlar könüllü olaraq qanvermə aksiyasına qoşulduqlarına, irsi qan xəstəliklərindən əziyyət çəkən vətəndaşlara dəstək məqsədi daşıyan bu aksiyanın iştirakçısı olduqlarına görə məmnundurlar.

Prezident İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsi ölkəmizdə könüllülük fəaliyyətinin ümummilli hərəkat kimi daha geniş miqyas almasına imkan verib. Hər bir sahədə könüllülərin sayının artmasının şahidi oluruq. Bu həm də cəmiyyətimizin yüksək mənəvi-əxlaqi keyfiyyətlərin daşıyıcı olduğunu bir daha təsdiq edir.

Könüllülük hərəkatının genişlənməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də öz sözünü deyir: Nazirliyin tabeliyindəki DOST Agentliyində "Gənc DOST", "Gümüşü DOST" və "Virtual DOST" altproqramları icra olunur. İndiyədək yüzlərlə şəxs bu proqramların iştirakçısı olaraq DOST mərkəzlərində dövlət sosial xidmətlərinin "bir pəncərə"dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verir. Eyni zamanda pandemiya dövründə yaşlı vətəndaşlara evlərində sosial xidmətlərin təşkilində DOST könüllülərinin xüsusi fəallığının şahidi oluruq.

Bu gün könüllü qanvermə aksiyası könüllülükdə daha bir xeyirxahlıq nümunəsini ortaya qoyur və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi bu istiqamətdə də öz dəstəyini göstərir.

Sosial sahədə ölkədə böyük islahatları reallaşdıran qurumun əməkdaşları qanvermə aksiyasında da yaxından iştirak etdilər. Onlar bildirirlər ki, talassemiyalı və hemofiliyalı xəstələrə yardım etmək, belə xəstələr üçün qan ehtiyatını artırmaq çox vacibdir. Bu vacib işlərdə bundan sonra da həmişə ön cərgədə olacaqlar.

*İ.ƏLİYEVA, "Azərbaycan"*

● Tribuna

# Qazanılan təcrübə komandada işləmək və təşkilatçılıq bacarığını artırır

**Könüllülük fəaliyyətinə Bakı şəhər, 2 saylı "ASAN xidmət" Mərkəzində başladım. Master 1 pilləsini uğurla başa vurduqdan sonra fəaliyyətimi davam etdirmək üçün "ASAN School" könüllülük məktəbinin "Yaşıl ASAN" təşəbbüsünə müraciət etdim.**



Müsahibə mərhələsini keçdikdən sonra ekoloji maarifləndirmə və ətraf mühitin mühafizəsi istiqamətində ilkin təlimlərə cəlb olundum. Ekoloji istiqamətdə məzun olmuş könüllülərlə birlikdə hazırladığımız layihələr və təqdimatlar Bakı və regional "ASAN xidmət" mərkəzlərində geniş tətbiq olundu.

Təşkilatçı komandada yer aldığım digər layihələrdə də fəallıq göstərdim. "Yaşıl ASAN" komandasının "Yaşıl İncəsənət" rəsm-sərgi müsabiqəsi, "Bakı Piknik Festivalı", "Yaşıl Gün" festivalı, "Yaşıl Təfəkkür" layihələri mənə böyük uğur və təcrübə qazandırdı. Sonra işgüzarlığımı daha da artırmaq məqsədilə "ASAN School" könüllülük məktəbinin master 2 pilləsi üzrə Təhsil Nazirliyinin İnsan resursları şöbəsində təcrübə keçdim. Qazandığım əlavə təcrübə nəzəri bilik və bacarığımı iş prosesində tətbiq etməyə çox kömək etdi.

Daha sonra ölkənin yeni qurumlarından olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin ilk könüllüsü oldum. Fəaliyyətimin mənə qazandırmış olduğu idarəçilik və komanda işi bacarıqları nəzərə alınaraq agentliyin Aparat üzrə könüllü proqram rəhbəri təyin olundum. Bir il ərzində mənə həvalə olunmuş bu işi müvəffəqiyyətlə başa vuraraq məzun oldum. Bundan az sonra DOST Agentliyinin "Könüllü DOST" proqramına müraciət etdim. Müsahibə mərhələsini uğurla keçdim. Bakı şəhər 1 saylı DOST mərkəzində könüllülük fəaliyyətinə başladım. Sosial sahədə xüsusi qayğıya ehtiyacı olan insanlara könüllülük prinsipləri əsasında komanda yoldaşlarım ilə xidmət göstərdik. İki ayın sonunda xüsusi sertifikat ilə təltif olundum. Könüllü DOST proqramının məzunlarından oldum.

Könüllülük sahəsində qazandığım təcrübəyə əsasən "Formula-1" Azərbaycan Qran-prisində könüllü, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasında xüsusi protokol könüllüsü, Kiçik və Orta Biznesin İnkişafı Agentliyində protokol təcrübəsi kimi fəaliyyətimi davam etdirmişəm. Universitetdə təhsil aldığım müddətdə könüllülük təcrübəsinin mənə qazandırmış olduğu bilgilər liderlik, komandada işləmək bacarığı, bir çox sahədə dünyagörüşümü artırmaq, insanlara təmənnasız yardım etmək şansları yaratdı.

Bu sahədəki hər bir uğurumun arxasında "ASAN könüllüləri"nin bir üzvü olaraq qazandığım təcrübənin böyük rolu olduğunu xüsusi qeyd etmək istəyirəm. "ASAN" könüllüsü olaraq gələcək karyerasını qurmaq istəyən hər bir Azərbaycan gəncinə real perspektivləri dəyərləndirməyi, cəsarətli olmağı, könüllü fəaliyyətinə qoşularaq layihə və tədbirlərdə həvəslə iştirak etməyi arzulayıram.

Könüllülük Azərbaycan gəncinin ən böyük uğurudur!

*Əli Əkbər ƏFƏNDİYEV, "Yaşıl ASAN" proqramının müvəkkili, "ASAN" könüllüsü*

● "Könüllülər ili"nin gəncləri

# Hər bir vətəndaşımıza xidmət etməyə hazırıq

**Könüllülük ümid yeri, savab əmələ sahib olmaq, xalqına, vətəninə sosial xidmət etmək deməkdir. Elə buna görədir ki, bütün dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə əhalinin maarifləndirilməsi və qayğıya ehtiyacı olan insanlara sosial xidmətlərin göstərilməsi üçün ölkə başçısının çağırışı ilə Azərbaycan könüllüləri ordusu formalaşdı. Könüllülərin Əlaqələndirmə Mərkəzinin (AKƏM) də yaradılmasında əsas məqsəd vətəndaş cəmiyyəti quruculuğuna təkan vermək, sosial-iqtisadi, ekoloji problemlərin aradan qaldırılmasına nail olaraq, könüllülük hərəkatının faəliyyətini artırmaq və gənclərin beynəlxalq inteqrasiyasını təmin etməklə beynəlxalq əməkdaşlığın qurulmasına çalışmaqdır.**





27 mart 2020-ci ildə təsis olunan və fəaliyyətə başlayan bu mərkəz Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, "ASAN Könüllüləri" Gənclər Təşkilatı İctimai Birliyi, "Regional İnkişaf" İctimai Birliyi, "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, "Könüllü DOST" proqramı, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "Nəqliyyat Könüllüləri" Proqramı, Bakı Şəhər Halqası Könüllüləri, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü gömrükçü" dəstəsi, "Turizm Könüllüləri" İctimai Birliyi və "Gənc Könüllülər" Hərəkatının təmsilçilərinin iştirakı ilə koronavirusla (COVID-19) mübarizədə fəal iştirak edir.

Ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı elan olunmuş xüsusi karantin dövründə könüllülərin fəaliyyəti təqdirəlayiq hesab edilir. Onlar koronavirusla mübarizədə həkimlər, polislər, digər mühüm sektorlarda çalışanlarla çiyin-çiyinə durublar. Yaşlı tənha insanların ərzaqla təminatını təchiz etmək, sosial yardımların ehtiyacı olanlara çatdırılmasında könüllülərin birbaşa iştirakı mühüm rol oynayır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi karantin rejimi müddətində talassemiya, hemofiliya və leykoz xəstəliyindən əziyyət çəkənlərin qanla təmin olunması məqsədilə dəstək çağırışına bir çox insanların, təşkilatların qoşulmaları könüllülük fəaliyyətinin yaranmış bu vəziyyətdə aktual olduğunu sübut etdi. Aprelin 8-də AKƏM Milli Hemotologiya və Transfiziologiya Mərkəzi - Qan Bankı ilə birlikdə "Könüllü donor" aksiyasına start verib. Minlərlə könüllü Qan Bankının paytaxt və regionlarda yerləşən bölmələrində qanvermə aksiyasında iştirak edir. Mayın 12-də keçirilən qanvermə aksiyasına demək olar ki, bütün könüllülər qoşuldu.

AKƏM-in təşkilatçılığı ilə keçirilən "Könüllü qonşu" aksiyasının da əsas məqsədi koronavirus pandemiyası dövründə xüsusi rejimin tələblərinə müvafiq şəkildə yaxın ərazidə olan ehtiyac sahiblərinə, xüsusən kimsəsiz ailələrə və 65 yaşdan yuxarı ahıl insanlara gündəlik lazımi dəstəyin göstərilməsini təmin etməkdir.

Könüllülər binaların girişində xüsusi elanlar vasitəsilə əlaqə nömrələri yazaraq daxil olan zənglər əsasında vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınmasına və kommunal ödənişlərin həyata keçirilməsinə kömək göstərirlər. "Könüllü qonşu" aksiyasına qoşulan Qax könüllüləri də şəhərin müxtəlif ərazilərində yaşayan tənha və ahıl insanlara kömək göstərirlər.

Ölkəmizin 28 şəhər və rayonunda min nəfərə yaxın könüllü "Böyüklərimizi qoruyaq!" devizi altında minlərlə aztəminatlı ailəyə, tənha ahıllara, fiziki məhdudiyyəti olan şəxslərə baş çəkib, onlara müxtəlif ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamalar çatdırıblar.

Bu gün ölkə vətəndaşları arasında dövlətimizin həyata keçirdiyi siyasətə dəstək, Prezidentə inam və etimad çox yüksək səviyyədədir. Bu yüksək inam, dövlət-vətəndaş birliyinin möhkəmliyi fonunda pandemiyaya qarşı mübarizədən də uğurla çıxacağıq. Eyni zamanda yeni iqtisadi və sosial inkişaf modeli əsasında Azərbaycanın davamlı inkişafı təmin ediləcək, bütün sferaları əhatə edən islahatlar yeni-yeni hədəflərin gerçəkləşməsini şərtləndirəcəkdir. Bir sözlə, hər zaman olduğu kimi, pandemiya dövründə də Azərbaycan ən yüksək zirvələri fəth edəcək. Bundan sonrakı dövrdə də könüllülük hərəkatının daha da genişləndirilməsinə, inkişafına diqqət artırılacaq. Heç təsadüfi deyil ki, Prezident İlham Əliyev çıxışlarında qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusunun yarandığını, daim onların fəaliyyətini izlədiyini bildirir, bu hərəkatın üzvlərinin öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazanmasını yüksək qiymətləndirir.

Cəmiyyətin inkişafı, müsbət dəyərlərin geniş vüsət alması və humanizm prinsiplərinin aşılanması, eyni zamanda təcrübəli gənclərin yetişməsi, enerjisini faydalı əməyə cəlb etməsi yönündə ölkəmizin atdığı hər bir uğurlu addımı dəstəkləyirik və daima xalqımıza xidmət etməyə hazırıq! Könüllülük hərəkatı sayəsində biz seçdiyimiz yolla inamla irəliləyəcək, bütün zirvələri fəth edəcəyik.

*Elmir HƏŞİMLİ, Qax rayonu Gənclərin Karyera və İnkişaf Mərkəzinin direktoru*

# Məzun günü: Təhsil naziri "Son zəng"i çaldı

**2019-2020-ci tədris ilində mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq ilk dəfə virtual şəkildə "Son zəng" təşkil edilib.**

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, virtual "Son zəng"də bütün bölgələrin məzunları virtual himn oxuyublar. Eyni zamanda, son 3 ay ərzində teledərslər vasitəsilə tədrisi davam etdirən müəllimlər "Azərbaycanım" mahnısını ifa ediblər. Virtual "Son zəng", "Mədəniyyət", "ARB 24" və "REAL TV" televiziyası, eləcə də Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən, həmçinin İctimai televiziyanın efirindən yayımlanıb.

Builki "Son zəng" ötən illərdən fərqli olaraq Təhsil naziri Ceyhun Bayramov tərəfindən çalınıb.

Məzunları təbrik edən Təhsil naziri deyib: "Bu ilin məzun günü çox fərqli oldu, arzuladığımız kimi qeyd edə bilmədik. Bu, məyusedicidir, lakin pandemiyanın gətirdiyi reallıqdır.

Bizim üçün sizin sağlamlığınız ən önəmlidir. Cari tədris ilinin ikinci yarımilindən şagirdlərimiz doğma məktəblərindən, müəllimlərindən, müəllimlərimiz isə şagirdlərindən ayrı düşdülər. Bilirik ki, məktəb hər bir müəllim və şagird üçün ikinci evi qədər doğmadır. Müəllimlərimizin yorulmaz fəaliyyəti nəticəsində bu ayrılıq bir o qədər hiss olunmadı".

Ceyhun Bayramov vurğulayıb ki, pandemiya dövründə müəllimlər evdən virtual dərslər keçməklə şagirdlərinin yanında oldular, onların təhsili naminə çalışdılar.

Bu dövrün valideynlər üçün də sınaq olduğunu deyən nazir virtual tədris prosesində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Qeyd edək ki, 2019-2020-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 119 min 852, XI siniflərini 80 min 646 şagird bitirib. Tədris ilində respublika üzrə 3256 ümumtəhsil məktəbində fəaliyyət göstərən 5855 məktəbəhazırlıq qrupunu 107 min 911 nəfər başa vurub.

Xatırladaq ki, Nazirlər Kabinetinin Azərbaycanda COVID-19 infeksiyasına yoluxma hallarının qarşısının alınması barədə qərarlarına əsasən martın 3-dən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi mərhələlərlə tədris ilinin sonunadək dayandırılıb. Eyni zamanda, təhsilin fasiləsizliyini və davamlılığını



təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən təxirə salınmadan yeni təşəbbüslər reallaşdırılıb. İlk növbədə əhatə dairəsinə görə ən geniş olan ümumi təhsil pilləsində teledərslər təşkil olunub. Teledərslər Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı və "ARB Günəş" kanalında yayımlanıb. Ümumi təhsil müəssisələrinin şagirdləri üçün martın 11-dən etibarən şənbə və bazar günləri istisna olmaqla, hər gün 5-6 saat TV dərslər yayımlanıb, təhsilin əhatəliyi və əlçatanlığı təmin olunub, ümumi təhsil müəssisələrində təhsil alan 1,6 milyon şagird tədrisə cəlb olunub. Dərslər ümumi təhsil proqramına uyğun olaraq bütün sinifləri və əksər fənləri əhatə edib. Nümayiş etdirilən bütün teledərslər sonradan sərbəst istifadə üçün Təhsil Nazirliyinin **www.video.edu.az** elektron portalında və rəsmi "Facebook" səhifəsində, "YouTube" kanalında yerləşdirilib ki, bu da şagirdlər üçün əlavə imkanlar yaradıb. Tədris ilinin sonunadək 2124 teledərs təqdim edilib.

Təhsil sahəsində görülən işlərin davamı olaraq yayımlanan teledərslərin interaktivliyini təmin etmək və ümumilikdə məsafədən tədris imkanlarını genişləndirmək məqsədilə aprelin 2-dən "Virtual məktəb" layihəsinə start verilib. Bir milyondan çox müəllim və şagird "Virtual məktəb" platformasında qeydiyyatdan keçib.

Təhsilalanlara daha geniş təlim imkanlarının yaradılması, müəllimlərə təlimlərin verilməsi və mentor dəstəyinin göstərilməsi məqsədilə "onlayn siniflər"in fəaliyyəti təşkil edilib. 1000-dən çox müəllim distant təhsil mövzusunda onlayn təlimlərə cəlb olunub.

Xüsusi vurğulamaq lazımdır ki, pandemiya dövründə Azərbaycanda tətbiq edilən təhsil platforması UNESCO-nun rəsmi saytında təqdim edilən siyahıda yer alıb.

Təhsil Nazirliyi pandemiya dövründə məktəbəqədər təhsilin davamlılığı ilə bağlı tədbirlərin həyata keçirilməsinə nail olub. Belə ki, nazirliyin Təhsil İnstitutu tərəfindən həyata keçirilən "İcma əsaslı məktəbəqədər təhsilin inkişafı" layihəsi çərçivəsində UNICEF-in maliyyə dəstəyi ilə "Oynayırıq və öyrənirik" adlı teledərslər təqdim olunub. Ölkə üzrə 33 rayon və şəhərin 308 icmasını əhatə edən 321 icma əsaslı məktəbəqədər təhsil qrupuna 6212 nəfər 3-4 yaşlı uşaq cəlb edilib.

Təhsil Nazirliyi məktəblilərin ev şəraitində asudə vaxtlarının səmərəli təşkilinə də nail ola bilib. Bu istiqamətdə məktəbdənkənar təhsil sahəsində bir sıra uğurlu təşəbbüslər həyata keçirilib. Aprelin 1-dən məktəbdənkənar təhsil müəssisələrinin qrup və dərnəklərinə cəlb edilən məktəblilər üçün dərs cədvəlinə uyğun olaraq onlayn dərslər keçirilib. Onlayn dərslərdə indiyədək 27 idman növü və 103 dərnək üzrə 15 min nəfərdən artıq qrup və dərnək üzvü, 1200-dən çox müəllim iştirak edib.

Pandemiyanın təsirlərinin azaldılması istiqamətində Təhsil Nazirliyi tərəfindən bir sıra sosial-psixoloji fəaliyyət də həyata keçirilib. Evdə qalan şagird və müəllimlərə, eləcə də vətəndaşlara mənəvi-psixoloji dəstək məqsədilə Təhsil Nazirliyi tərəfindən aprelin 6-dan 146-3 "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb. Xidmətin təşkili üçün təcrübəli məktəb psixoloqları işə cəlb olunub.

Cari tədris ilinin yekunlaşdırılması Təhsil Nazirliyi üçün mühüm bir mərhələ oldu. Bununla əlaqədar Dövlət İmtahan Mərkəzi, Təhsil Nazirliyi yanında İctimai Şura, mütəxəssislərlə çoxsaylı müzakirələr aparılıb. Nəticədə ümumi təhsil müəssisələrində yekun qiymətləndirmələrin və monitorinqlərin aparılması, birinci sinfə qəbulun təşkili, təhsilalanların bir sinifdən digərinə keçirilməsi, buraxılış imtahanlarının təşkili, ali təhsil müəssisələrində və təhsilin digər pillələrində yay imtahan sessiyalarının təşkili, müəllimlərin işə qəbulu imtahanlarının keçirilməsi vaxtı, formatı və qaydaları ilə bağlı mühüm qərarlar qəbul edilib.

# "Heydər Əliyev siyasi məktəbini öyrənirik - 2020" Gənc Liderlər Proqramının rəsmi açılışı olub

İyunun 12-də Gənclər və İdman Nazirliyinin və Heydər Əliyev Mərkəzinin birgə layihəsi olan "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının videokonfrans formatında rəsmi açılış mərasimi oldu.



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, açılışda Gənclər və İdman naziri Azad Rəhimov və nazir müavini İntiqam Babayev iştirak ediblər.

İyunun 12-də Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Gənclər və İdman Nazirliyinin və Heydər Əliyev Mərkəzinin birgə layihəsi olan "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının qalib iştirakçıları ilə görüşüb, onlara gələcəyin liderləri olaraq bu məktəbi yüksək səviyyədə bitirməyi arzu edib.

Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə 2019-cu ildən keçirilən proqramın əsas məqsədi gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi ilə onlarda liderlik keyfiyyətlərinin inkişafına şərait yaratmaqdır.

Nazir Azad Rəhimov bildirib ki, bu proqram gənclər üçün bir növ qeyri-formal təhsil platformasıdır: "Sizi 2-3 ay ərzində maraqlı görüşlər, təlimlər və vebinarlar gözləyir. Sanitar-epidemioloji vəziyyət normallaşdıqca ünsiyyətimizin canlı rejimə keçirilməsi nəzərdə tutulub. Hazırda davam etməkdə olan COVID-19 pandemiyası qarşımıza yeni vəzifə və çağırışlar qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş və ardıcıl siyasəti, ilk növbədə, əhalinin sağlamlığının qorunmasına yönəldilib. Qısa müddət ərzində atılmış addımlar - xüsusi fondun yaradılması, Bakıda və regionlarda karantin üçün yerlərin ayrılması, modul tipli xəstəxanaların tikilməsi, tibbi ləvazimatların istehsalının təmin edilməsi xüsusilə qeyd olunmalıdır".

Qeyd edək ki, proqrama 40-dan artıq şəhər və rayondan 350-dən çox gənc müraciət edib. Hər bir iddiaçının anketi diqqətlə öyrənildikdən sonra ilkin seçim nəticəsində 171 gənclə onlayn formada müsahibə aparılıb. Ümumilikdə 110 gənc iştirakçı kimi seçilib. İştirakçıların seçimi zamanı onların ictimai fəallığı, təşkilatçılıq bacarıqları, dünyagörüşləri və hadisələrə baxışları, ünsiyyət və əlaqə qurmaq bacarıqları, komandada işləmək təcrübəsi kimi meyarlara üstünlük verilib. İyun-sentyabr aylarında proqram çərçivəsində onlayn formada rəsmi şəxslərlə görüşlər, vebinarlar və təlimlərin keçirilməsi nəzərdə tutulub. Sentyabr-oktyabr aylarında iştirakçılar komandalarda layihə və təkliflər hazırlayacaqlar. Təkliflərin aidiyyəti üzrə müvafiq dövlət orqanlarına təqdim edilməsi nəzərdə tutulur.

Sanitar-epidemioloji vəziyyətdən asılı olaraq Naxçıvan Muxtar Respublikasına səfər planlaşdırılır. İştirakçıların hər birinə məzun diplomlarının təqdim edilməsi nəzərdə tutulub. Ötən il həyata keçirilmiş proqram çərçivəsində gənclər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Müdafiə naziri Zakir Həsənov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Təhsil naziri Ceyhun Bayramov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini İlqar Musayev ilə görüşlər keçiriblər.

Proqram Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı əsasında reallaşdırılır.

# Avropa Parlamenti: "Dağlıq Qarabağ Azərbaycanın qanunsuz işğal edilmiş ərazisidir"

Avropa Parlamentinin Azərbaycan, Ermənistan və Gürcüstan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Marina Kalyurand, Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, bu qurumun Ermənistan üzrə məruzəçisi Trayan Besesku Ermənistan ilə Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionu arasında yeni magistral yol tikintisi ilə əlaqədar birgə bəyanat yayıblar (bax: azertag.az/ru/xeber/1510037).

AZƏRTAC xəbər verir ki, bu sənəd Azərbaycanın Dağlıq Qarabağ regionunun Yerevan tərəfindən lobbiləşdirilən "öz müqəddəratının təyin etmək hüququnun bütün qanunlar üzrə sərbəst fikir bildirilməsi nəticəsində öz müqəddəratını təyin etmiş arsax xalqı" statusuna rəğmən, məhz Ermənistan tərəfindən işğal edilmiş region kimi dünyada, o cümlədən Avropa İttifaqı strukturlarında daha artıq dərəcədə tanınmasının növbəti təsdiqidir.

Sənəd Avropa Parlamentinin saytında dərc edilib: https://www.europarl.europa.eu/cmsdata/208877/KALJURAND_BASESCU_ZOVKO_Joint%20statement_new%20highway%20between%20Armenia%20and%20Nagorno%20Karabakh.pdf

Sənədin mətni yetərincə qısadır, lakin onun əhəmiyyəti də məhz bundadır ki, Ermənistan və Azərbaycan üzrə əsas məruzəçilərin prinsipial mövqeyi qısa formada ifadə edilib. Bəyanatın ikinci cümləsində "also" (həmçinin) sözü diqqəti cəlb edir: "Yeni infrastruktur yolu, HƏMÇİNİN (!) işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarından keçməklə Ermənistandakı Qafanı Dağlıq Qarabağdakı Hadrut ilə birləşdirəcək".

Beləliklə, "həmçinin" sözü "işğal edilmiş" statusunu Dağlıq Qarabağın özünə də şamil edir. Bütün bu illər ərzində bilavasitə Dağlıq Qarabağ ilə ona bitişik rayonlar arasında keyfiyyətcə hədd qoymağa çalışanlar yəqin ki, indi özlərini çox pis hiss edirlər! Sənəddə bir qədər sonra ilk baxışda "yarımçıqlıq" və "ikimənalılıq" təsiri bağışlayan hər hansı ifadələr bir kənara atılıb: Dağlıq Qarabağa bitişik rayonlarla yanaşı, bu region özü də açıq-aydın "qeyri-qanuni işğal edilmiş ərazi" adlanır. Üstəlik, bu qeyri-qanuni işğalı sabitləşdirmək cəhdlərinin qəbuledilməz olması və bu baxımdan narahatlıq ifadə edilir.

Nəhayət, sonda daha bir xoşagələn məqam ondan ibarətdir ki, sənədin müəllifləri ATƏT-in Minsk qrupunun səylərini dəstəkləyirlər, lakin bu dəstək ermənilərin xoşladığı hansısa mücərrəd formada ifadə olunmur, 2009-cu ildən qəbul edilmiş baza prinsipləri "münaqişənin dinc yolla, Azərbaycanın beynəlxalq səviyyədə qəbul edilmiş sərhədləri səviyyəsində nizamlanması" şəklində konkretləşdirilir.

Bu sərhədləri izah etməyə, fikrimizcə, ehtiyac yoxdur. Lakin əgər erməni tərəfi "Arsaxın müstəqilliyi Azərbaycanın sərhədlərini pozmur, çünki Dağlıq Qarabağ hələ Azərbaycanın sərhədləri tanınana qədər leqal şəkildə onun tərkibindən çıxıb" kimi cəfəng tezislərlə manipulyasiya etməyə çalışarsa, onun bir məsələ barədə fikirləşməsi pis olmazdı: əgər belədirsə, əgər ərazi bütövlüyü heç kəs tərəfindən pozulmursa, onda Avropa İttifaqından olan siyasətçilər ərazi bütövlüyünə riayət edilməsi prinsipini ümumiyyətlə nə üçün xatırladırlar?

Hərçənd əminik ki, Yerevanda onsuz da hər şeyi çox yaxşı başa düşürlər. Bir şapalağın izi keçməmiş növbəti şapalaq gəlir. Ümidvarıq ki, bu da sonuncu olmayacaq.



European Parliament
2019-2024

Delegation to the EU-Armenia Parliamentary Partnership Committee, the EU-Azerbaijan Parliamentary Cooperation Committee and the EU-Georgia Parliamentary Association Committee

JOINT STATEMENT BY
THE CHAIR OF THE DELEGATION, MEP Marina KALJURAND,
THE EUROPEAN PARLIAMENT'S STANDING RAPPORTEUR ON ARMENIA, MEP Traian BĂSESCU
AND THE EUROPEAN PARLIAMENT'S STANDING RAPPORTEUR ON AZERBAIJAN, MEP Željana ZOVKO

on the construction of a new highway between Armenia and Nagorno-Karabakh

Brussels, 10 June 2020 - "Announced last year, the construction of a third highway connecting Armenia and Nagorno-Karabakh will kick off soon.

This new road infrastructure will connect Kapan, in Armenia, with Hadrut, in Nagorno-Karabakh, passing through the districts of Qubadli and Jabrayil, which are also occupied.

As a matter of principle, we support projects that foster regional cooperation, connectivity and people-to-people contacts in the Eastern Neighbourhood.

That said, the decision to build this highway has been taken without the consent of the competent authorities of Azerbaijan - in violation of international law. In addition, it could symbolically entrench the illegal occupation of Nagorno-Karabakh and of its surrounding districts.

Therefore, we very much deplore this initiative as it does not help to create conditions conducive to trust, peace and reconciliation.

We reiterate our unwavering support to the efforts of the Co-Chairs of the OSCE Minsk Group and their 2009 Basic Principles. For this mediation to have a chance of success, we call on the authorities of Armenia and Azerbaijan to step up their commitment, in good faith, to the negotiation on the peaceful resolution of the conflict within the internationally recognised borders of Azerbaijan."

For further information contact:

# Avropa Xəbər Agentlikləri Alyansı: "Pandemiya dövründə informasiya istehlakı artsa da, xəbər müxtəlifliyi azalıb"

## Vebinarda AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov informasiya istehsalı və istehlakında mövcud meyillərdən danışıb

Pandemiya dövründə informasiya istehlakı artsa da, xəbər müxtəlifliyi azalmağa doğru dəyişib. İş formatında və üslubunda da müəyyən dəyişikliklər baş verib.



Bu məsələlər Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv agentliklərin iyunun 12-də keçirilən onlayn görüşündə müzakirə olunub.

Görüşdə Fransanın France Press, Almaniyanın DPA, Türkiyənin Anadolu, İspaniyanın EFE, Finlandiyanın STT, Ukraynanın Ukrinform və digər agentliklərin rəhbərləri və nümayəndələri iştirak ediblər. Azərbaycanı Alyansın üzvü olan AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanov təmsil edib.

Təqdimatla çıxış edən DPA agentliyinin prezidenti Piter Kropş qeyd edib ki, koronavirus pandemiyası xəbər istehlakının xeyli artmasına səbəb olub. İnsanlar əsasən bu xəstəlik və yaranan iqtisadi böhranla daha çox maraqlanıblar. Lakin bununla belə, bütün sahələrdəki durğunluq informasiya müxtəlifliyinə mənfi təsir edir. Video və mətn həcminin qısalması, foto satışının, press-reliz və reklam biznesinin zəifləməsi müşahidə olunur. Bu baxımdan Avropa agentlikləri gəlirlərin azaldığı dövrdə qənaət rejiminə keçmək niyyətindədir.

Eyni zamanda, karantin səbəbindən agentliklər fəaliyyətlərinin böyük hissəsini mobil texnologiyalar və məsafədən iş vasitələri ilə həyata keçirdiklərini, bunun da yeni imkanlar açdığını qeyd edirlər. Bu cür iş rejimində uzun müddət fəaliyyət göstərmək mümkün olsa da, mövcud məhdudiyyətlər innovasiyaların tətbiqinə mənfi təsir göstərir.

Görüşdə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov bu qeyri-adi dövrdə insanların etibarlı informasiyaya ehtiyacından, dezinformasiyanın cəmiyyətə mənfi təsirindən danışıb. O bildirib ki, Azərbaycanda COVID-19-a qarşı mübarizə ilə yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin həyata keçirdiyi sosial-iqtisadi dəstək və tibbi iqtisadiyyatın təşkili proqramları maraq doğuran əsas mövzular olub. Agentlik bu sahələr üzrə xəbər, video, analitik və infoqrafika materialları hazırlayaraq 8 dildə yayıb. Statistikaya əsasən, AZƏRTAC-ın informasiyalarına müraciətlərin pandemiya dövründə 40 faiz yüksəldiyini qeyd edən Aslan Aslanov deyib: "Azərbaycanda koronavirusla bağlı vəziyyəti idarə edən Nazirlər Kabineti yanında Operativ Qərargahın mütəmadi brifinqləri, medianın sorğularına operativ cavabları dezinformasiyanın ölkədə geniş yayılmasının qarşısını alıb".

Görüşdə pandemiya zamanında auditoriya üçün müxtəlif informasiya növlərinin istehsalından da bəhs edilib. Qeyd olunub ki, karantin rejimində məktəblərin bağlanması ilə əlaqədar AZƏRTAC özünün Uşaq Bilik Portalı vasitəsilə şagirdlər və uşaqlar üçün təlim və tədris materialları, maarifləndirici və düşündürücü məlumatlar yayıb.

Alyansın vebinarda iştirak edən üzv agentliklərinin rəhbərləri öz təcrübələrini bölüşüb, belə görüşlərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

*Əvvəli 1-ci səh.*

# Azərbaycanın növbəti diplomatik uğuru

Bu siyasətin nəticəsidir ki, Ermənistanın yalan iddiaları daha əvvəlki kimi ayaq tutub yerimir və güclü Azərbaycan bu gün əsl həqiqətləri beynəlxalq ictimaiyyətə olduğu kimi çatdırır. Məhz Azərbaycanın güclənən mövqeləri nəticəsində Ermənistanın baş naziri N.Paşinyanın hakimiyyətə gəldikdən sonra bir-birinə zidd, eləcə də danışıqlar prosesinin mahiyyətinə uyğun olmayan bəyanatlarına qarşı beynəlxalq təşkilatlar tərəfindən sərt reaksiya verilir. Məsələn, Ermənistan tərəfinin danışıqlar prosesinin formatının dəyişdirilməsi, Dağlıq Qarabağdakı separatçı rejimin müzakirələrə cəlb edilməsi barədə tələbləri ilk gündən beynəlxalq səviyyədə dəstəklənmədi. ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr formatın dəyişdirilməsi barədə təklifi yaxına belə buraxmadılar. Avropa İttifaqı rəsmiləri də formatın dəyişdirilməsinə etiraz etdilər. Nəticədə işğalçı rejim əvvəlki formatda danışıqlar masasına qayıtmaq məcburiyyətində qaldı.

Bu gün siyasi baxımdan danışıqlarda üstünlük Azərbaycanın tərəfindəndir. Eləcə də Azərbaycan Ordusu son dövrlərdə öz mövqelərini strateji baxımdan da xeyli gücləndirib. Aprel döyüşlərindən sonra ordumuz əlverişli mövqelərə sahib olub. Naxçıvandakı Günnüt zəfərindən sonra ordumuz Yerevan-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarəti təmin edib.

Ermənistanın hərbi-siyasi dairələrinin Azərbaycanın hər sahədə üstünlüyünü artırmasından narahatçılıq keçirməsi sirr deyil. Elə işğal olunmuş Dağlıq Qarabağdan Azərbaycanın digər işğal altında olan rayonlarından keçməklə Ermənistana yeni avtomobil yolunun çəkilməsi də bu narahatçılığın göstəricisidir. Azərbaycan Xarici İşlər Nazirliyinin bununla bağlı açıqlamasında deyilir ki, respublikamızın işğal olunmuş ərazilərindən keçməklə Ermənistanı ölkəmizin hazırda işğal altında olan Dağlıq Qarabağ bölgəsi ilə birləşdirən növbəti, üçüncü yolun çəkilişi işğalçı Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrində həyata keçirilən qeyri-qanuni fəaliyyətin bir hissəsidir.

Bu məsələdə ən mühümü odur ki, artıq Ermənistan hakimiyyəti Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi işlərə bəraət qazandıra və hüquqi don geyindirə bilmir. Yolun çəkilişi ilə bağlı Avropa Parlamenti təmsilçilərinin sərt etirazlarını bildirmələri bunu təsdiq edir. Belə ki, bu günlərdə Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand, Azərbaycan üzrə məruzəçisi Jelena Zavko və Ermənistan üzrə məruzəçisi Trayan Basesku Ermənistan ilə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanat yayıblar. Bəyanatda deyilir: "Prinsip etibarı ilə biz Şərq Qonşuluğundakı regional əməkdaşlığı, əlaqələri və insanlar arasındakı əlaqələri inkişaf etdirən layihələri dəstəkləyirik. Lakin bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan qəbul edilib və beynəlxalq hüquq pozulub. Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Buna görə də bu təşəbbüsdən çox təəssüflənirik, çünki bu, etimad, sülh və barışıq mühiti yaratmağa kömək etmir. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərinə və onların 2009-cu ildə təsdiqlənən Əsas Prinsiplərinə dəstəyimizi bir daha bəyan edirik. Bu vasitəçiliyin uğur qazanması üçün biz Ermənistan və Azərbaycan hakimiyyətlərini Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinə dair danışıqlarda öz öhdəliklərini gücləndirməyə çağırırıq".

Bu bəyanat bir çox həqiqətlərə yenidən işıq saldı. Belə ki, bir daha aydın olur ki, Avropa institutları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyirlər. - Bəyanatda "Dağlıq Qarabağın və ətraf rayonların işğalı" ifadəsi işlədilir. Bu da Avropa təsisatları tərəfindən işğal faktının təsdiq olunduğunu göstərir. Eyni zamanda sənəd Ermənistan tərəfindən Azərbaycanın işğal altında olan ərazilərində qeyri-qanuni fəaliyyət həyata keçirildiyini göstərir, infrastrukturu dəyişdirmək cəhdlərinin yolverilməzliyini diqqətə çatdırır.

Beləliklə, Avropa təsisatları, beynəlxalq ictimaiyyət artıq işğal faktını görür və həm də əmindirlər ki, Ermənistan infrastrukturu dəyişdirməyə cəhd göstərməklə və qeyri-qanuni məskunlaşdırma həyata keçirməklə işğalın nəticələrini qanuniləşdirmək istəyir. Ən əsası bu bəyanat göstərdi ki, beynəlxalq təşkilatlar artıq erməni yalanlarını qəbul etmək istəmirlər.

Başqa bir reallıq da odur ki, sülh danışıqları nəticəsiz qalarsa və hərbi əməliyyatlar yenidən başlayarsa heç bir magistral yoldan istifadə etmək Ermənistana müyəssər olmayacaq. Çünki Azərbaycanın hərbi qüdrəti işğalçı qüvvələrin istifadəsində olan istənilən infrastrukturu dərhal məhv etmək imkanındadır. Azərbaycan Müdafiə Nazirliyinin bununla bağlı bəyanatında deyilir: "Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb. Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan Ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi: "Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni yeni yollar çəkməyə məcbur edir"

Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı bəyanatda deyilir.

Bəyanatda qeyd olunur ki, strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan Ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir.

# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun işğal altında olan Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Azərişıq" ASC-də 2 region və 10 rayona yeni rəis təyin edilib

Cənab prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlara uyğun olaraq istehlakçılara göstərilən xidmətin səviyyəsini daha da yüksəltmək, aparılan yenidənqurma işlərini sürətləndirmək üçün müasir və innovativ düşüncəli, yeni texnologiyaları mənimsəmiş Ağıllı Şəbəkələrin elektron idarəetmə tələblərinə cavab verən peşəkar gənc kadrlar region və rayon elektrik şəbəkələrinə rəis təyin edilmişlər.

Qərb və Şimal-Qərb Regional Enerji Təchizatı və Satışı idarələrinə (RETSİ), həmçinin Quba, Şamaxı, Qax, Oğuz, Balakən, Şəki, Ucar, Ağcabədi ilə yanaşı, paytaxt Bakının Səbail və Nərimanov rayon elektrik şəbəkələrinə yeni rəislər təyin edilib.

## Beynəlxalq aləm

### Tramp Belarus rəhbərliyinə qarşı sanksiyaları uzatdı



ABŞ Belarus rəhbərliyinin nümayəndələrinə, o cümlədən respublika Prezidenti Aleksandr Lukaşenkoya qarşı sanksiyaları bir il uzatmışdır. Müvafiq fərmanı ABŞ Prezidenti Donald Tramp imzalamışdır.

Sənəddə deyilir ki, Belarus hökumətinin bəzi nümayəndələrinin hərəkətləri ABŞ-ın milli təhlükəsizliyinə və xarici siyasətinə fövqəladə təhlükə yaradır. Sanksiya altına düşən şəxslərin siyahısına Lukaşenkodan əlavə, doqquz nəfər, o cümlədən Təhlükəsizlik Şurasının katibi, Ədliyyə və Daxili İşlər naziri, Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri, Mərkəzi Seçki Komissiyasının sədri, dövlət teleradio şirkətinin rəhbəri və başqaları daxildir.

İlk belə fərmanı 2006-cı ilin iyununda ABŞ-ın 43-cü Prezidenti Corc Buş (oğul) vermişdir. Həmin sənədə uyğun olaraq, Belarus vətəndaşlarının bəzi kateqoriyalarının ABŞ-dakı, eləcə də xaricdəki əmlakına həbs qoyulurdu.

### Avropalılar pul xərcləməkdən çəkinirlər



Avropalılar bank hesablarında yüz milyardlarla avro pul saxlayırlar, hərçənd qitənin bir çox ölkələrində mağaza və restoranlar yenidən açılmışdır. "Bloomberg" agentliyi xəbər verir ki, adamlar artan işsizliyi və koronavirus pandemiyasının ikinci dalğasının baş verməsi ehtimalını nəzərə alaraq pul xərcləməkdən ehtiyat edirlər.

Avropa iqtisadiyyatının yarıdan çoxunu təşkil edən istehlak xərcləri iqtisadi bərpa üçün həlledici əhəmiyyət kəsb edir. Daxili tələbatın az olması Avropanın böhrandan gec və mürəkkəb şəkildə çıxması riskini artırır.

Avropa İttifaqı vətəndaşlarının əksəriyyəti (58 faiz) böhran üzündən maliyyə problemləri ilə üzləşmişdir. Avropalıların təxminən üçdə biri iqtisadiyyatda yaranmış vəziyyət səbəbindən gəlirini itirdiyini bildirmişdir. Yaxın aylarda 30 milyon nəfər iş yerini itirə bilər.

### ABŞ büdcəsində kəsir rekord həddə çatıb



ABŞ-ın dövlət borcu tarixdə ilk dəfə 26 trilyon dolları keçmişdir. Bu barədə ölkənin Maliyyə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, hazırda dövlət borcu 26 trilyon dollardan çoxdur. Aprelin 7-də həmin göstərici 24 trilyon dollar idi. Donald Tramp Ağ evə rəhbərlik edəndən bəri dövlət borcu 6 trilyon dollar artmışdır.

Maliyyə Nazirliyi qeyd edir ki, dövlət borcunun artması koronavirus pandemiyası ilə mübarizə proqramına vəsait ayrılmasından və onunla əlaqədar vergi ödənişlərinin təxirə salınmasından qaynaqlanır.

### Hindistan sakini torpağını fillərə miras qoydu

Hindistan sakini heyvanlara sevgi səbəbindən ailəsini mirassız qoymuşdur. "The İndian Times" qəzetinin xəbərinə görə, o, tərtib etdiyi vəsiyyətnamədə yazmışdır ki, 2,5 hektar torpağı öləndən sonra fillərə qalmalıdır. Bihar ştatında yaşayan 50 yaşlı kişi izah etmişdir ki, Moti və Rani adlı iki fili onun üçün çox şey deməkdir. Fillərin biri hətta bir dəfə sahibini ölümdən qurtarmışdır. Belə ki, fil yatan sahibini silahlı bir adamın yaxınlaşmasından xəbərdar etmişdi. Nəticədə filin sahibi oyanıb qaça bilmişdi.

Kişinin arvadı və uşaqları vəsiyyətnamədən çox da məmnun deyillər, hərçənd onlara kiçik torpaq sahəsi və ev qalacaq.



### Aralıq dənizində 48 miqrant batdı

Tunis sahillərinin yaxınlığında baş vermiş gəmi qəzası nəticəsində 48 miqrant həlak olmuşdur. Bu barədə Tunis Müdafiə Nazirliyi məlumat vermişdir.

Ölkənin cənub-şərq sahillərinin yaxınlığında batmış gəmidə Afrikanın müxtəlif ölkələrindən gəlmiş 53 miqrant vardı. Qalan miqrantların axtarışı davam edir.



İlkin istintaq məlumatları göstərir ki, gəmi Sfaks şəhər limanından çıxıb İtaliya istiqamətində üzürdü, lakin Kernen adalarının yaxınlığında qəzaya uğramışdır.

Agentlik qeyd edir ki, keçən il Tunis Avropaya getməyə çalışan miqrantlar üçün yeni mühüm marşrut olmuşdur. Kernen isə əsas çıxış nöqtələrindən biri kimi tanınırdı.

# Ermənistanda koronavirusla bağlı dramatik vəziyyət hökm sürür

## Ermənilər pandemiyaya yoluxanların sayının dəhşətli dərəcədə artmasına görə Nikol Paşinyanı ittiham edirlər

Cənubi Qafqaz ölkələri arasında bu gün yalnız Ermənistanda koronavirus pandemiyasının səhiyyə sistemini çökdürdüyü müşahidə edilir. Hazırda Ermənistan regionda koronavirusla bağlı ən dramatik vəziyyətin hökm sürdüyü ölkədir. Əslində, dünya miqyasında da Ermənistan ən pis durumda olanlar sırasındadır. Rəsmi rəqəmlərə əsasən, ölkədə virusa yoluxanların sayı 15 mini keçib.

Bugünədək Ermənistanda 300 nəfərədək insan pandemiyanın qurbanı olub. Amma bu rəqəmlər əslində, reallığı tam əks etdirmir. Bunu Ermənistanın baş naziri Nikol Paşinyanın özü də etiraf edir. Qeyd edir ki, yoluxma və ölümlər, eləcə də aparılan datoloji analizlərin nəticələri göstərir ki, əslində Ermənistanda COVID-19 virusuna yoluxanların real sayı 100 min nəfəri keçib. Yeri gəlmişkən qeyd edək ki, baş nazir fövqəladə vəziyyət üzrə komendaturanın son iclasından sonra ölkəsində vəziyyətin cəhənnəmə çevrildiyini açıqlayıb.

Baş nazir ölkədə koronavirusa yoluxma hallarının kəskin artmasına görə səhiyyə sisteminin çökdüyünü, yüzlərlə xəstənin xəstəxanaya yerləşdirilmək üçün növbə gözlədiyini deyib. Onun sözlərinə görə, situasiya kritik həddi keçib və cəhənnəmə çevrilib. Paşinyana görə virusun belə sürətlə yayılmasının səbəbi insanların təhlükəyə məhəl qoymaması və laqeydliyidir. Onun fikrincə, insanların davranışı dəyişmədən və epidemiya əleyhinə tədbirlərə sərt riayət olunmadan vəziyyəti dəyişmək mümkün olmayacaq.

Elə bu günlərdə Rusiyanın "Nezavisimaya qazeta" mətbu orqanı da yazmışdı ki, koronavirus Ermənistanı fəlakət həddinə çatdırıb. Qeyd edilir ki, Ermənistanda koronavirusa yoluxanların sayının dəhşətli dərəcədə artmasına görə vətəndaşlar baş nazir Nikol Paşinyanı ittiham edirlər: "Ermənistan parlamentində təmsil olunmuş müxalifət respublikada epidemiya ilə bağlı çox mürəkkəb vəziyyət yaranmasının və yaxşılaşma meyillərinin olmamasının səbəbi barədə hökumətdən izahat tələb edir. Parlamentdə təmsil olunmayan müxalifət isə bu vəziyyətə görə şəxsən Nikol Paşinyanı və onun hökumətini ittiham edir. Nazirlər Kabinetində əvvəllər işləyənlərin bir qismi də Paşinyanın istefasını tələb edənlərə qoşulub. Özü yüngül formada koronavirusa yoluxmuş baş nazir isə yaranmış təhlükəli vəziyyətə görə məsuliyyəti əhalinin üzərinə atır. Onun fikrincə, əhali mövcud vəziyyətə qeyri-ciddi yanaşır və təhlükəsizlik normalarını pozur. Səhiyyə naziri Arsen Torosyan da kəskin tənqidə məruz qalıb. Müxalifət onu epidemiya siyasətini tamamilə iflasa uğratmaqda, səhvlərini etiraf etməyi və onları düzəltməyi bacarmamaqda ittiham edir".

Bildirilir ki, Torosyan özü bu günlərdə Gürcüstanın ünvanına koronavirusla bağlı qəribə bir bəyanat verib. Bu bəyanat beynəlxalq qalmaqala səbəb olub və nazir qonşu ölkədən üzr istəyib. Bu dəfə isə Torosyan müxalifətçi deputatları təqsirləndirib. Onun fikrincə, məhz həmin deputatlar fövqəladə vəziyyət rejiminin uzadılmasına, yoluxanlarla təmasda olan şəxslərin aşkarlanmasına və maska taxmaq sistemi tətbiq edilməsinə mane olub, nəqliyyatın və müəssisələrin işinin bərpa olunmasını tələb ediblər.

Qeyd olunur ki, bu durumda Paşinyan xalqa müraciət edərək vəziyyətin pisləşdiyini bildirib. Baş nazirin sözlərinə görə, tibb müəssisələri həddən artıq yüklənib və tibbi yardıma ehtiyacı olan insanları qəbul edə bilmir. Təbii ki, bunlar Paşinyan üçün yaxşı nəticələnməyəcək.

Rusiyanın "Lenta.ru" saytı isə qeyd edir ki, Ermənistan koronavirusla savaşı uduzub: "Ermənistan əhalisinin təhsilinin aşağı səviyyədə olması da özünü göstərir - bu ölkədə ümumiyyətlə virusu bakteriyadan, bakteriyanı göbələkdən fərqləndirə bilənlər azdır, həkimə müraciət etmək də. Əksər hallarda nəticə eyni olur - xəstələr xalq tərəfindən yoxlanılmış resept üzrə hərəkət edirlər: hər hansı xəstəliyin hər hansı əlamətləri yarandıqda antibiotik içirlər".

Vurğulanır ki, Ermənistanda artıq iki ildir ki, antibiotiklərin sərbəst satışı qadağan edilib, amma reallıqda bu qadağa işləmir. İnsanlar həbləri qəbul edir, amma bilmirlər ki, antibiotiklər koronavirusun müalicəsinə kömək etmir. Onlar sağaldıqlarını güman edərək küçəyə çıxırlar... Virus ilk real problem oldu ki, Paşinyan komandası onu əvvəlki hakimiyyət orqanlarının üzərinə yıxa bilmədi. Epidemiyanı lazımınca maliyyələşdirilməyən və lazımınca inkişaf etməmiş səhiyyə sisteminin bütün imkanlarını səfərbər etməsi ilə izah etmək cəhdləri uğursuz oldu. Təəccüblü deyil ki, Ermənistanda mart ayında elan edilmiş ikihəftəlik sərt karantin və hələ də saxlanılan digər məhdudiyyətlər heç bir fayda vermədi, yalnız iqtisadiyyata zərbə vurdu. Karantin rejimini pozanlara qarşı hər hansı ciddi sanksiyalar tətbiq edilmirdi, pozuntuların miqyası isə o qədər böyük idi ki, əgər polis hər bir məsuliyyətsiz vətəndaşdan cavab tələb etsəydi, ölkə əhalisinin yarısını saxlamaq lazım gələrdi.

Məqalədə yazılır ki, Ermənistanda COVID-19 testlərinin 30-40 faizi müsbət nəticə verir. Paşinyanın milli fəlakət haqqında şivənçi bəyanatlarından sonra polis tam fəaliyyətsizlik vəziyyətindən kəskin şəkildə çıxdı və digər ifrat mövqe tutdu. İndi 4-5 nəfərlik naryadlar küçələrdə insanları saxlayır, onların qollarını burur, yerə yıxır, onlar qışqırmağa başlayana qədər boğurlar. Təəssüf ki, onlar ABŞ-ı irqi müharibə həddinə çatdırmış amerikalı həmkarlarının kədərli təcrübəsini nəzərə almırlar. Hakimiyyət orqanları xalqı, xalq isə hakimiyyət orqanlarını təqsirləndirir, lakin vəziyyət dəyişmir. Hər iki tərəf təqsirkardır və tərəflərin heç biri nəinki səhvlərini düzəltmək, heç olmasa onları etiraf etmək istəmir. Digər tərəfdən, hər gün koronavirus testlərinin 30-40 faizi müsbət nəticə verir. Bu rəqəmlər yoluxanların sayının çox yüksək olmasına və deməli, səhiyyə sisteminin tezliklə iflasa uğrayacağına və bunlardan heç də az kədərli olmayan başqa nəticələrə dəlalət edir".

Hazırda Ermənistan hakimiyyətinin inamsız hərəkətləri etiraz əhvali-ruhiyyəsinin güclənməsinə gətirib çıxara bilər. Bir vaxtlar Paşinyana dəstək verən müxalif qüvvələr də bu durumda onun hakimiyyətdən getməsini vacib sayırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 19 mart 2020-ci il və 03 aprel 2020-ci il tarixli sayında dərc edilmiş 05 may 2020-ci il tarixdə açıq tender sorğusu metodu ilə keçirilmiş dəftərxana və təsərrüfat xərclərinin satın alınmasına dair tenderdə Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "A4 PLAZA" MMC elan olunmuşdur.

Qalib təşkilatla 08 iyun 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

---

Azercell

**abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 16.06.2020-ci il gecə saatlarından başlayaraq 17.06.2020-ci il səhər saatlarınadək, 18.06.2020-ci il gecə saatlarından başlayaraq 19.06.2020-ci il səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

---

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti brezent və müxtəlif növ parçaların satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 25 iyun 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı ş., Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

---

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti polad borular və dirsəklərin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 29 iyun 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı ş., Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

---

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti emal məftillərin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 02 iyul 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı ş., Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

---

# Azərbaycanda əhalinin sayı 10 milyon 81 min nəfəri ötüb

İlin əvvəlindən ölkə əhalisinin sayı 14 min 473 nəfər və ya 0,1 faiz artaraq 2020-ci il may ayının 1-i vəziyyətinə 10 milyon 81 min 581 nəfərə çatıb. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ RƏCƏBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi Maliyyə Nazirliyinin maliyyə-inzibati şöbəsinin müdir müavini Bəşir Səfərova əzizi

**HAFİZ RƏCƏBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Bakı Şəhər İcra Hakimiyyəti başçısının müşaviri Kamil Məmmədova anası

**ŞƏFİQƏ ƏLİAĞA QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ RƏCƏBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Gəncə Şəhər Statistika İdarəsinin rəisi

**İSMAYIL CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7407
Sifariş 1489
Qiyməti 40 qəpik